DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 07 (357) / İYUL 2021-Cİ İL



Bizim tarixi torpağımızda Dağlıq Qarabağ Muxtar Vilayətini yaratmaq, bir kəndi - Xankəndini, hansı ki, kənd idi, onu oranın mərkəzi etmək və cəllad Şaumyanın adını vermək Azərbaycan xalqına qarşı çox mənfi bir addım idi. Bizim üçün təhqir idi. Tarix hər şeyi yerinə qoyub. Ancaq statusa gəldikdə, bu gün orada 25 min adam yaşayır. Orada gedən proseslərlə bağlı bizim məlumatımız kifayət qədər böyükdür, çoxşaxəlidir. Biz əvvəllər də, müharibədən əvvəl də bilirdik orada nələr baş verir. Əlbəttə, indi də bilirik, çünki onlar bizim ayağımızın altındadır. Orada yaşayanların real sayı 25 mindir. Başqa rəqəmlər də səsləndirilib ki, müharibədən sonra oraya 50 mindən çox adam qayıdıb, ola bilər, ancaq qayıdan o demək deyil ki, orada qalır. Qayıdıb, sonra çıxıb gedib, geri dönüb. İkincisi, bizim müxtəlif texniki vasitələrimiz, peykimiz var. Biz oradakı maşınların sayını bilirik. Biz insanların hərəkətini görürük. Necə deyərlər, digər obyektiv vasitələr var ki, onları əsas götürüb, dəqiq bilirik orada nə qədər adam yaşayır - 25 min maksimum. Biz gündəlik monitorinq aparırıq, neçə maşın girib Laçın dəhlizinə, neçə maşın çıxıb. Eyni zamanda, biz xaricdən gələn maşınları da görürük və demişik ki, buna son qoyulmalıdır, bu, yaxşı deyil, bu, bizim ərazimizdir. Bizim icazəmiz olmadan xarici maşın necə girə bilər ora. Bir də əgər kimsə hesab edir ki, biz bunu görmürük, səhv edir. Bəzi hallarda o maşınlara erməni nömrələri yapışdırılır. Ancaq biz oradayıq, biz dəhlizdəyik. Biz hər şeyi görürük, Xankəndini də, dəhlizi də. Ona görə buna da son qoyulmalıdır. Oradan gündəlik çıxan maşınların sayı girən maşınlardan xeyli çoxdur. 25 min insan üçün status yaratmaq hansı məntiqə sığır? Mən sual verirəm. Bu gün Fransada və Amerikada bu məsələ ilə bağlı reallığı əks etdirməyən bəyanatlar səslənəndə haqlı olaraq Azərbaycan xalqı bundan narazı olur ki, münaqişə öz həllini tapmalıdır. Mən demişəm, deyin necə həll olunmalıdır? Mən deyirəm, mən Azərbaycan Prezidenti deyirəm, mən bu məsələni həll etmişəm, vəssalam! Dağlıq Qarabağ yoxdur, status yoxdur! Şərqi Zəngəzur var, hansı ki, mənim Sərəncamımla Qarabağ iqtisadi zonası ilə bərabər 7 iyul 2021-ci ildə imzalanıb. 7 iyul 1923-cü ildə - bir əsr bundan əvvəl Dağlıq Qarabağ Muxtar Vilayəti yarandı, 7 iyul 2021-ci ildə Şərqi Zəngəzur və Qarabağ iqtisadi zonası yaradıldı. Ona görə yoxdur bu və əgər kimsə, yenə deyirəm, status vermək istəyir, Amerikada bir milyona yaxın erməni yaşayır, Fransada 500 mindən çox erməni yaşayır, Marsel şəhərində 100 mindən çox erməni yaşayır və onun həndəvərində. Niyə orada status verilmir? Bəs niyə Azərbaycanda bu status verilməlidir? Bunun hansı hüquqi, siyasi, tarixi əsasları var? Yoxdur! Ermənilər orada daha əvvəl yaşamağa başlayıblar, nəinki bizim ərazimizdə. Bizim ərazimizə onlar 1828-ci ildən - 12-ci, 28-ci ildən sonra köçürülməyə başlamışlar. Onların orada yaşamaları üçün tarixi əsasları yoxdur. Biz indi, sadəcə olaraq, humanizm göstəririk, deyirik ki, etiraz eləmirik, deyirik ki, onlar bizim vətəndaşlarımızdır. Əgər o xunta başçıları o xalqa imkan versə, əminəm ki, onlar böyük məmnuniyyətlə Azərbaycan vətəndaşları kimi də yaşayacaqlar, çalışacaqlar, gələcəklər, gedəcəklər, o cümlədən iş dalınca gələcəklər, Ağdama da gələcəklər, Füzuliyə də, hələ bizdən xahiş edəcəklər. Ona görə status məsələsi, bax, bu qiymətə layiq olmalıdır. Olmasa, başqa yerdə beş dənə Dağlıq Qarabağ yaratsınlar, mən etiraz etmirəm. Mən onu tanıyacağam. Amma Azərbaycanda yox.

**Prezident İlham Əliyev**
Azərbaycan Televiziyasına müsahibəsindən
22 iyul 2021-ci il

## AZƏRBAYCAN, TÜRKİYƏ VƏ PAKİSTAN ARASINDA BAKI BƏYANNAMƏSİ İMZALANIB



Səh. 4

## "MƏNƏVİ DƏYƏRLƏRİMİZ,TARİXİ ZƏFƏRİMİZ VƏ GƏNCLİK" MÖVZUSUNDA TƏDBİR KEÇİRİLİB



Səh. 5

## "KÖNÜLLÜMÜZ OL" LAYİHƏSİNİN BİR QRUP İŞTİRAKÇISINA SERTİFİKATLAR TƏQDİM OLUNUB



Səh. 9

## İSRAİLDƏ AZƏRBAYCANIN TİCARƏT VƏ TURİZM NÜMAYƏNDƏLİKLƏRİ AÇILIB



Səh. 14

# PREZİDENT İLHAM ƏLİYEV QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINI TƏBRİK EDİB



Hörmətli həmvətənlər!

Sizi və ölkəmizin hüdudlarından kənarda yaşayan bütün soydaşlarımızı dünya müsəlmanlarının birlik, həmrəylik və qardaşlıq rəmzi olan müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

İnsanları humanizmə, mərhəmətə və vəhdətə dəvət edən Qurban bayramında müsəlmanlar Haqq yolunda, nəcib amallar uğrunda hər cür fədakarlığa hazır olduqlarını nümayiş etdirir, Ulu Yaradana yaxınlığın sevincini yaşayırlar.

Bəşər mədəniyyətinin möhtəşəm mərhələsini təşkil edən İslam sivilizasiyası xalqımızın dünyagörüşünün formalaşmasında və milli-mədəni inkişafında müstəsna rol oynamış, mütərəqqi İslam adət-ənənələri və mənəvi-əxlaqi dəyərləri Azərbaycanda hər zaman uca tutulmuşdur. İslam dünyasının tarixi-mədəni mərkəzlərindən biri kimi Azərbaycan dünya mədəniyyətinə və elmi-fəlsəfi fikrinin inkişafına misilsiz töhfələr bəxş etmişdir.

Əziz bacı və qardaşlarım!

Vətənimizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçmiş qəhrəman övladlarımızın nurlu xatirəsini bu mübarək bayram günlərində dərin ehtiramla yad edirik. Xalqımız şəhidlərimizin şərəfli adını heç zaman unutmayacaq, onların ailələri və qazilərimiz dövlətin daimi diqqət və qayğısı ilə əhatə olunacaqdır. Əminəm ki, ölkəmizin rifahı, firavanlığı üçün edilən dualar, torpaqlarımızın işğaldan azad olunmasının doğurduğu Qələbə ovqatı və Allaha şükranlıq hissi ilə kəsilən qurbanlar cəmiyyətimizdə milli-mənəvi həmrəylik ruhunu daha da gücləndirəcək, xeyirxah əməllərin, şəfqət və mərhəmət duyğularının təntənəsinə çevriləcəkdir.

Dua və niyyətlərinizin Tanrı dərgahında qəbul olunması diləyi ilə bir daha hamınıza xoşbəxtlik, ailələrinizə əmin-amanlıq, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 17 iyul 2021-ci il

# AZƏRBAYCAN, TÜRKİYƏ VƏ PAKİSTANIN PARLAMENT NÜMAYƏNDƏ HEYƏTLƏRİ ŞUŞADA YUXARI GÖVHƏRAĞA MƏSCİDİNİ ZİYARƏT EDİBLƏR

Şuşada səfərdə olan Türkiyə və Pakistan parlamentlərinin nümayəndə heyətlərinin üzvləri iyulun 29-da Yuxarı Gövhərağa məscidində olublar.

Qonaqlara məscidin tarixi, işğal dövründə ermənilərin burada törətdiyi dağıntılar, eyni zamanda, Şuşanın azad edilməsindən sonra ibadət ocağında aparılan təmir-bərpa işləri barədə məlumat verilib.

Nümayəndə heyətlərinin üzvləri məsciddə namaz qılıb, dua ediblər.

Şuşa şəhərindəki bir sıra tarixi və dini-memarlıq abidələrini, həmçinin digər məkanları ziyarət etdikdən sonra Cıdır düzünə gələn qonaqlar buradan açılan əsrarəngiz mənzərəni seyr ediblər.

Parlamentarilər Şuşadan sonra Füzuliyə səfər edərək 30 ilə yaxın erməni işğalı altında qalan rayonda erməni vandalizminin izləri ilə tanış olublar.



# DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNDƏ ONLAYN İCLAS KEÇİRİLİB




İyulun 1-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) tərəfindən Azərbaycan Respublikası Prezidentinin 23 noyabr 2018-ci il tarixli 739 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019‒2025-ci illər üçün Strategiya”nın 2019-2021-ci illərdə icrası üzrə Fəaliyyət Planı"nın yerinə yetirilməsi ilə əlaqədar onlayn iclas keçirilib.

İclasda DQİDK-nın rəhbər şəxsləri, Aparat və bölgə şöbələrinin əməkdaşları iştirak ediblər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı bütün dövlət qulluqçularının qanunun aliliyi və yüksək etik davranış qaydalarını rəhbər tutaraq fəaliyyət göstərmələrinin vacibliyindən bəhs edib. O bildirib ki, Dövlət Komitəsinin hər bir əməkdaşı etik davranış və peşəkar fəaliyyəti ilə vətəndaşların quruma inamını artırmaq və möhkəmləndirmək, nüfuzunu yüksək tutmaqla yanaşı, qanunvericilikdə nəzərdə tutulmuş məhdudiyyətlərə əməl etməli, dövlət qulluqçularının vəzifələrinin icrası ilə bir araya sığmayan və onun adına xələl gətirə biləcək, habelə dövlət orqanının nüfuzunu aşağı sala biləcək hərəkətlərə yol verməməlidir.

Çıxış edən Aparat rəhbəri Alim Süleymanov, Dini qurumlarla iş üzrə şöbənin müdiri Cahandar Əlifzadə, İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Yaqut Əliyeva, Ümumi şöbənin müdiri Amil Cavadov, Hüquq və qeydiyyat şöbəsinin müdiri Səbinə Allahverdiyeva Komitə əməkdaşlarının vəzifələrini yerinə yetirərkən vicdanlı, mədəni, qərəzsiz davranmalı, Dövlət qulluqçularının etik davranış qaydaları haqqında Azərbaycan Respublikasının Qanununun bu və digər tələblərini istisnasız yerinə yetirməli olduqlarını bildiriblər. Qeyd edilib ki, etik davranış qaydalarının pozulması dövlət qulluqçularının qanunvericiliklə nəzərdə tutulmuş qaydada və müddətdə intizam məsuliyyətinə cəlb edilməsi üçün əsas yaradır. Eyni zamanda dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsində peşəkarlığın artırılması, dövlət qulluğuna yeni qəbul olunan şəxslərin bilik və bacarıqlarının inkişaf etdirilməsi və s. ilə bağlı məsələlər müzakirə edilib.

Müzakirələrə qoşulan Dinşünaslıq ekspertizası şöbəsinin müdiri Nahid Məmmədov və Yevlax bölgəsi üzrə şöbənin müdiri Natiq Əfəndiyev dövlət qulluqçularının etik davranış qaydaları ilə əlaqədar gələcəkdə mütəmadi treninqlərin keçirilməsinin əhəmiyyətinə toxunublar.

İclasa yekun vuran S.Salahlı Komitənin yerli şöbələrinin əmək intizamının möhkəmləndirilməsi, Azərbaycan Respublikasına məxsus dövlət-din modelinin multikultural və tolerant dəyərlərimizin təbliğ və təşviqi istiqamətində qarşıda duran vəzifələrdən danışıb.

# PREZİDENT İLHAM ƏLİYEV: "İŞĞAL DÖVRÜNDƏ ERMƏNİSTAN BÜTÜN MƏDƏNİ VƏ DİNİ ABİDƏLƏRİ QƏSDƏN DAĞIDIB"



"İşğal dövründə Ermənistan Azərbaycanın işğal edilmiş ərazilərində şəhər və kəndləri, bütün mədəni və dini abidələri qəsdən dağıdıb. Hətta qəbiristanlar yerlə-yeksan edilib. Ermənistanın məqsədi əsrlər boyu həmin ərazilərdə yaşamış azərbaycanlıların izini silmək olub. Bizim məscidlərimiz donuz və inək tövləsi kimi istifadə edilib". Bu fikirləri Prezident İlham Əliyev Qoşulmama Hərəkatının Xarici işlər nazirlərinin onlayn formatda keçirilən aralıq konfransındakı çıxışında Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində törətdiyi dağıntılardan danışarkən bildirib. Dövlət başçısı vurğulayıb ki, Ağdam şəhəri o dərəcədə dağıdılıb ki, onu "Qafqazın Xirosiması" adlandırırlar. Füzuli şəhəri işğaldan azad olunandan sonra Ordumuz orada Azərbaycan bayrağını qaldırmaq üçün bir dənə də salamat bina tapa bilmədi. Onların hamısı Ermənistan tərəfindən dağıdılıb.

Prezident İlham Əliyev onu da deyib ki, xarici diplomatların və jurnalistlərin azad olunmuş ərazilərə müntəzəm səfərləri təşkil edilir. Onlar Ermənistanın törətdiyi vəhşiliyin şahidi olublar. Beynəlxalq media Azərbaycan xalqına məxsus mədəni və dini irsin məqsədli şəkildə dağıdılması və təhqir olunması, şəhər və kəndlərin darmadağın edilməsi faktlarını sənədləşdirib və onları işıqlandırıb.

"Mən həmkarlarıma bizim şəhər və kəndlərimizin işğaldan əvvəl və sonrakı vəziyyəti ilə bağlı qısa məlumat və fotoşəkillərdən ibarət təsviredici kitab göndərəcəyəm. Kitabda Azərbaycanın dini və tarixi abidələrinin tamamilə məhv edilməsi öz əksini tapıb ", - deyə Prezident İlham Əliyev qeyd edib.

# DÖVLƏT KOMİTƏSİNDƏ GÖRÜŞLƏR



İyulun 6-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı İsrailin İqtisadi Sülh Mərkəzinin (Economic Peace Center - İsrail ilə Yaxın Şərq və İslam dünyası arasında sülhün təşviq olunması istiqamətində fəaliyyət göstərən qurum) prezidenti Ayub Kara və mərkəzin informasiya-xəbər saytının redaktoru, siyasi analitik Reyçel Avraham ilə görüşüb.

S.Salahlı Azərbaycandakı nümunəvi dövlət-din modelinə diqqət çəkərək, Konstitusiyamızda təsbit edilmiş vicdan azadlığı, dinlərarası harmoniya, ayrı-ayrı dini konfessiyalar arasında qarşılıqlı hörmət və etimada əsaslanan əməkdaşlıq münasibətləri haqqında, eləcə də bu münasibətlərin tənzimlənməsi sahəsində fəaliyyət göstərən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi barədə qonaqlara məlumat verib.

Sədrin birinci müavini yəhudilərin ölkəmizdə məskunlaşma tarixindən danışaraq bildirib ki, respublikamızda digər icmalar kimi, yəhudi icmasının da qarşılıqlı anlaşma və əmin-amanlıq şəraitində yaşaması üçün lazımi şərait var.

Səyyad Salahlı Azərbaycanda bugünədək 970 dini qurumun dövlət qeydiyyatına alındığını, onlardan 933-nün İslam, 37-nin isə qeyri-İslam təmayüllü olduğunu, eyni zamanda, ölkə ərazisində 2250 məscidlə yanaşı, 16 kilsə və 7 sinaqoqun fəaliyyət göstərdiyini qeyd edib. Həmçinin əlavə edib ki, respublikada Dağ, Avropa və Gürcü yəhudi dini icmaları, yəhudi məktəbi fəaliyyət göstərir.

S.Salahlı vurğulayıb ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycanda nümunəvi multikultural və birgəyaşayış modeli formalaşıb.

İqtisadi Sülh Mərkəzinin prezidenti Ayub Kara Azərbaycanın tolerantlıq və multikulturalizmin təşviqi istiqamətində oynadığı nümunəvi rolu xüsusi vurğulayaraq, Azərbaycanla qurulmuş sıx dostluq əlaqələrinə önəm verdiklərini bildirib. Eyni zamanda ölkəmizdə müxtəlif dinlərin və xalqların dinc birgəyaşayışının, eləcə də uzun əsrlərdən bəri Azərbaycanda mövcud olan yəhudi icmasına göstərilən diqqət və qayğının yüksək səviyyədə olmasının böyük rəğbətlə qarşılandığını vurğulayıb.

Görüşün sonunda Dövlət Komitəsi, eləcə də Mənəvi Dəyərlərin Təbliği Fondunun dəstəyi ilə ölkəmizdəki etnik və dini tolerantlıq mühiti və maddi-mədəni irsimizə qarşı törədilən erməni vandalizmi haqqında ingilis dilində nəşr edilmiş kitablar qonaqlara təqdim edilib.

***

İyulun 23-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) sədrinin müavini Səyavuş Heydərov Türkiyə Vineyard kilsəsinin baş pastoru Gürkan Çamsun, Türkiyə Vineyard kilsələrinin rəhbəri Levent Kımran və SAT-7 türk kanalının Azərbaycan verilişləri üzrə koordinatoru Aygün Çamsun ilə görüşüb.

Xalqımızın çoxəsrlik tolerant və birgəyaşayış ənənələri, bu dəyərlərin qorunub-saxlanılması və təşviqi istiqamətdə aparılan nümunəvi din siyasəti barədə danışan Komitə sədrinin müavini Səyavuş Heydərov bildirib ki, Azərbaycanda tarixən formalaşmış yüksək tolerantlıq mədəniyyəti cəmiyyətin təhlükəsizliyi üçün böyük potensialdır. Sədr müavini qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycanda nümunəvi multikultural və birgəyaşayış modeli formalaşıb. O, əhalisinin əksəriyyətini müsəlmanlar təşkil edən respublikamızda bütün dini konfessiyaların nümayəndələrinin dövlətin diqqət və



qayğısı ilə əhatə olunduğunu vurğulayıb. S.Heydərov qeyd edib ki, dini konfessiyaların qanun qarşısında bərabər olması, digər dinlərə məxsus ibadətgahların bərpa edilməsi, dini icmalara mütəmadi maliyyə yardımlarının ayrılması Azərbaycan gerçəkliyini əks etdirən sağlam dini-mənəvi mühitin göstəricisidir.

Azərbaycana səfər etməkdən məmnun olduğunu bildirən Türkiyə Vineyard kilsəsinin baş pastoru Gürkan Çamsun ölkəmizin birgəyaşayış, tolerantlıq modelinin mükəmməl olduğunu qeyd edib, multikulturalizm və sivilizasiyalararası dialoq ideyasının təşviqi istiqamətində görülən işləri yüksək qiymətləndirib.

Qarşılıqlı maraq doğuran bir sıra məsələlərin müzakirə edildiyi görüşün sonunda qonaqlara Dövlət Komitəsinin nəşr etdirdiyi kitablar təqdim edilib.

***

İyulun 29-da Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı "Azİz" Azərbaycan-İsrail Beynəlxalq Assosiasiyasının baş direktoru Lev Spivak, "AVODA" partiyasının icraçı direktoru Bar İhielin və onun məsləhətçisi Melamed Lemuellə görüşüb.



Qonaqlara Azərbaycanda dini durum barədə məlumat verən Səyyad Salahlı qeyd edib ki, yəhudilər ölkəmizdə yaşayan qədim tarixə malik xalqdır. Hər iki xalq arasında hər zaman dostluq, qarşılıqlı anlaşma və həmrəylik münasibətləri mövcud olub. Ölkəmizdə dini etiqad azadlığı yüksək səviyyədə təmin edilir və bütün dinlərin nümayəndələri bərabərhüquqlu şəkildə fəaliyyət göstərir, dini ibadətlərini həyata keçirirlər. Bu baxımdan Azərbaycandakı mövcud dövlət-din münasibətləri modeli beynəlxalq ictimaiyyət tərəfindən təqdir olunur. Diqqətə çatdırıb ki, tolerantlıq ənənəsi xalqımızın gen yaddaşının məhsuludur və dövlət siyasətinin tərkib hissəsinə çevrilərək dünya miqyasında nümunəvi modellərdən biri səviyyəsinə yüksəlib. S.Salahlı dini konfessiyaların daim dövlətin diqqət və qayğısı ilə əhatə olunduğunu, hər il onlara fəaliyyətlərinin təmin olunması, maarifləndirmə işinin aparılması məqsədilə dövlət tərəfindən maliyyə dəstəyi göstərildiyini xüsusi qeyd edib.

Səmimi görüşə görə minnətdarlığını bildirən qonaqlar Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın işğal edilmiş torpaqlarının 44 günlük Vətən müharibəsində azad edilməsi münasibətilə təbriklərini çatdırıblar. Azərbaycanda heç bir zaman antisemitizmin olmadığını, dövlət-din münasibətləri modelinin, eləcə də dini tolerantlıq mühitinin uğurlu nəticələrinin təkzibedilməz olduğunu bildiriblər. Qeyd edilib ki, bu model qorunub inkişaf etdirilməklə yanaşı, nəinki region dövlətlərində, bütün dünyada nümunəvi model kimi öyrənilməli və geniş mənada tətbiq olunmalıdır.

Görüşdə sülh və barışa böyük ehtiyac duyulan müasir dünyada tolerantlığın Azərbaycan modelindən faydalanmağın dövrün tələbinə çevrildiyi vurğulanıb.

# AZƏRBAYCAN, TÜRKİYƏ VƏ PAKİSTAN ARASINDA BAKI BƏYANNAMƏSİ İMZALANIB




İyulun 27-də Azərbaycan Respublikası Milli Məclisinin sədri Sahibə Qafarova, Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop və Pakistan İslam Respublikası Milli Assambleyasının sədri Əsəd Qeysərin Birinci Üçtərəfli görüşü olub.

Azərbaycan, Pakistan və Türkiyənin bu gün öz regionlarında ən aparıcı ölkələr sırasına daxil olduqlarını diqqətə çatdıran Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarova qeyd edib ki, hər üç dövlət müstəqil xarici siyasət həyata keçirir və beynəlxalq aləmdə söz sahibidir. Dövlətlərimiz arasında mövcud olan münasibətlərin və qarşılıqlı faydalı əməkdaşlığın beynəlxalq münasibətlər sistemində özünəməxsus yeri və rolu var. Azərbaycan, Pakistan və Türkiyə bir-biri ilə sıx bağlı olan dost, qardaş və müttəfiq ölkələrdir və əlaqələrimiz qarşılıqlı hörmət və etimada əsaslanır. Sahibə Qafarova bildirib ki, ölkələrimiz artıq bir neçə sahədə üçtərəfli formatda əməkdaşlıq edirlər. Belə ki, Azərbaycan, Pakistan və Türkiyə xarici işlər nazirləri, habelə müdafiə nazirlikləri arasında sıx əməkdaşlıq mövcuddur.

Xalqlarımızın hər zaman bir-birinə bağlı olduqlarını və öz dəstəklərini əsirgəməmədiklərini xatırladan spiker S.Qafarova bunun bariz nümunəsi olaraq, Vətən müharibəsi zamanı Pakistan və Türkiyənin Azərbaycana göstərdiyi mənəvi-siyasi dəstəyi qeyd edib. Onun sözlərinə görə, bu dəstək xalqımız tərəfindən çox böyük rəğbət və sevgi ilə qarşılanıb, şəhər və kəndlərimizdə Azərbaycan bayrağı ilə yanaşı, Pakistan və Türkiyə bayraqları qürurla dalğalandırılıb. Milli Məclisin sədri xüsusi olaraq, qeyd edib ki, hökumətlərimiz və xalqlarımız arasında qardaşlıq münasibətləri ali qanunvericilik orqanlarımızın timsalında da öz əksini tapır. Məhz bu münasibətlərin daha da genişləndirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Milli Məclisi parlamentlərarası üçtərəfli əməkdaşlıq formatının təsis edilməsi təşəbbüsünü irəli sürüb və bu təşəbbüs Pakistan və Türkiyə tərəfindən müsbət qəbul olunub.

Sonra gündəliyə əsasən, Bakı Bəyannaməsinin mətni müzakirə və təsdiq edilib, gələcək koordinasiya üçün əlaqələndirici şəxslər təyin olunub. Həmçinin, Azərbaycan, Türkiyə və Pakistan parlament sədrlərinin İkinci Üçtərəfli görüşünün 2022-ci ildə Pakistanın İslamabad şəhərində keçirilməsi qərara alınıb.

Sonra parlament sədrlərinin Birinci Üçtərəfli Görüşünün yekunlarına dair Bakı Bəyannaməsinin imzalanması mərasimi keçirilib. Milli Məclisin sədri Sahibə Qafarova çıxış edərək Azərbaycan parlamentində belə bir tədbirin keçirilməsini tarixi hadisə kimi dəyərləndirib. Bildirib ki, Azərbaycan, Pakistan və Türkiyə arasında mövcud olan münasibətlər və əməkdaşlıq xalqlarımızın qardaşlıq əlaqələrinə, qarşılıqlı hörmət və etimadına söykənir. Qeyd edib ki, Azərbaycan öz ərazi bütövlüyünü və tarixi ədaləti bərpa edərək, BMT Təhlükəsizlik Şurasının uzun illər kağız üzərində qalan qətnamələrinin icrasını öz gücü ilə təmin edib. Spiker diqqətə çatdırıb ki, 2020-ci ilin noyabrında Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistan baş nazirinin imzaladıqları üçtərəfli bəyanatla münaqişəyə son qoyulub və hazırda bölgədə yeni reallıq yaranıb. Azərbaycanın 44 günlük Vətən müharibəsində qələbəsi, 30 illik münaqişəyə son qoyulması, həmçinin regionun geosiyasi mənzərəsini dəyişib. Bu gün Cənubi Qafqaz regionu üçün sülh, sabitlik və hərtərəfli əməkdaşlıq imkanları, nəqliyyat və kommunikasiya əlaqələrinin reallaşması üçün şərait yaranıb. Bu gün artıq Zəngəzur dəhlizinin bərpa olunması üçün addımlar atılır. Bu, Türkiyə ilə Azərbaycan arasında birbaşa və daha səmərəli əlaqəni təmin edəcək bir dəhlizdir. Milli Məclisin sədri onu da diqqətə çatdırıb ki, Xəzər dənizi vasitəsilə Əfqanıstan və Mərkəzi Asiyanı Cənubi Qafqaz regionu və Türkiyə ilə birləşdirən Lapis Lazuli dəhlizi regional nəqliyyat əlaqələrini getdikcə genişləndirməkdədir. Zəngəzur dəhlizi işə salındıqdan sonra qardaş Pakistandan Türkiyəyə qədər olan nəqliyyat xəttinin səmərəli fəaliyyəti reallığa çevriləcəkdir.

Görüşdə çıxış edən Pakistan parlamentinin sədri Əsəd Qeysər 44 günlük Vətən müharibəsində qazanılan qələbə münasibəti ilə Azərbaycan xalqını təbrik edib. Bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqının qələbəsi Pakistanda da qeyd edilib.

Əsəd Qeysər deyib ki, parlament sədrlərinin üçtərəfli görüş formatı böyük bir fürsətdir. O bu fürsətdən səmərəli istifadə etmək üçün bir sıra təkliflərini diqqətə çatdırıb. Ə.Qeysər ticarət, turizm, insan resurslarından istifadə sahəsində əməkdaşlığın vacibliyindən danışıb. Bildirib ki, Pakistanda Azərbaycan və Türkiyə mədəniyyət mərkəzlərinin yaradılması, birgə sənədli filmlərin çəkilməsi, tələbə mübadiləsinin həyata keçirilməsi çox faydalı olardı.

Sonra çıxış edən Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop üç qardaş ölkənin parlament sədrlərinin ilk dəfə Bakıda keçirilən üçtərəfli formatda görüşünü yüksək qiymətləndirib. Bildirib ki, ölkələrimiz və bölgəmizə təhdidləri dəf etmədən inkişaf mümkün deyil. O, müdafiə, nəqliyyat, ticarət, enerji, təhsil sahəsində fəaliyyətin üçlü əməkdaşlığın təməl daşları olduğunu düşündüyünü deyib. TBMM sədri Şuşa Bəyannaməsini bu yolda atılmış bünövrə sayılacaq addım adlandırıb. Mustafa Şentop bu gün imzalanacaq Bakı Bəyannaməsinin də əhəmiyyətini qeyd edib, Ermənistanın Azərbaycanın sülh anlaşması çağırışına cavab verməsinin vacibliyindən danışıb.

Sonra Milli Məclisin sədri Sahibə Qafarova, Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop və Pakistan İslam Respublikası Milli Assambleyasının sədri Əsəd Qeysər Bakı Bəyannaməsini imzalayıblar.

# PREZİDENT ADMİNİSTRASİYASININ ŞÖBƏ MÜDİRİ: "AĞDAMDA BƏRPASI MÜMKÜN OLAN ABİDƏLƏRLƏ BAĞLI RƏYİMİZİ TƏQDİM ETMƏLİYİK"



"Keçən ilin noyabr ayında Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahı yaradılıb. Bu gün Əlaqələndirmə Qərargahının nəzdindəki İdarələrarası Mərkəzin Elm təhsil və mədəniyyət məsələləri üzrə işçi qrupunun üzvləri Ağdama gəlib".

APA-nın məlumatına görə, bunu Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının nəzdindəki İdarələrarası Mərkəzin Elm təhsil və mədəniyyət məsələləri üzrə işçi qrupunun rəhbəri, Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva bildirib.

F.Əliyeva deyib ki, məqsəd vəziyyəti yerində görməkdik: "İşçi qrupunun tərkibində alimlər, mütəxəssislər və rəsmilər var. Dövlət başçısı Ağdamda olub, Ağdamın böyük gələcəyi var. Ancaq Ağdamın tarixi keçmişi var və gələcəyində bu keçmiş də yaşamalıdır. Biz də Prezidentin göstərişinə uyğun olaraq artıq layihələr üzərində işə başlamışıq. Ağdamda bərpa və restavrasiyası mümkün olan abidələrə baxış keçirib rəyimizi təqdim etməliyik. Gördüklərimizdən sarsılaq da, şəxsən çox xoşbəxtəm ki, belə tarixi məqamda belə tarixi məkandayam. Ermənilər yenilməz orduları olduqlarını iddia edirdilər. Ancaq Vətən müharibəsində müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusu yenilməzliyin nə olduğunu göstərdi. Bizim xalqın qurucuLuq işində də artıq yenilməzlik ruhu var. Biz onu Ağdamın bərpası zamanı da göstərəcəyik".

Prezident Administrasiyasının şöbə müdiri Ağdamda salamat bina qalmadığını söyləyib: "Hansı binaları tarixi görkəmlərinə uyğun bərpa etmək mümkündürsə, bu istiqamətdə bütün işlər görüləcək. Hamımızın bir namus borcu var, əsgərlərimiz burada qan töküb, canları ilə bu torpaqları azad ediblər. İşçi qrupun gəlişində də məqsəd budur. Görürsünüz ki, biz baxa-baxa qeydlər götürür, müzakirələr aparırıq. Bu vaxta qədər böyük iş görülüb, bundan sonra da çox böyük işlər görülməlidir. Bizim işçi qrupunun bu səfəri də bu işə bir təkan olacaq. Ermənilər tarixi abidələri yer üzündən silsələr də, yaddaşlardan silə bilməyiblər. Yaddaşda yaşayan tarix əbədi tarixdir. Yəni bu istiqamətdə mütləq işlər, araşdırmalar aparılacaq, mütəxəssis, alim rəyi öyrəniləcək".

Qeyd edək ki, İşçi Qrupu səfər çərçivəsində Qiyaslı məscidində və Şahbulaq kəndi yaxınlığında yerləşən tarixi Şahbulaq qalasında, habelə "İmarət" kompleksində, Cümə məscidində də olub, Ağdam Dram Teatrının binasının yerləşdiyi əraziyə, XIX əsrə aid Ağdam hamamına baxış keçirib.

# “MƏNƏVİ DƏYƏRLƏRİMİZ, TARİXİ ZƏFƏRİMİZ VƏ GƏNCLİK” MÖVZUSUNDA ONLAYN FORMATDA TƏDBİR KEÇİRİLİB



İyulun 26-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) sədrinin birinci müavini, yazıçı-publisist, əməkdar jurnalist Səyyad Salahlının “EDU Company” Təhsil Mərkəzinin müəllim-tələbə heyəti ilə onlayn formatda görüşü keçirilib.

“Mənəvi dəyərlərimiz, tarixi zəfərimiz və gənclik” mövzusunda keçirilən tədbiri giriş sözü ilə açan təhsil mərkəzinin baş direktor müavini Kamil Hüseynov bildirib ki, zəngin həyat yolu keçən, böyük dövlətçilik təcrübəsinə malik ziyalı Səyyad Salahlı ilə görüşün təşkil olunması gənclərin maariflənməsində, eləcə də dünyagörüşlərinin formalaşmasında olduqca əhəmiyyətlidir. Natiq yazıçının son dövrlər nəşr edilən “Başdaşı” və “İrəvana gedən yollar” əsərlərinin oxucular, xüsusilə gənclər tərəfindən böyük rəğbətlə qarşılandığını da diqqətə çatdırıb.

Daha sonra çıxış edən DQİDK sədrinin birinci müavini Səyyad Salahlı öncə 44 günlük Vətən müharibəsində Azərbaycanın əldə etdiyi zəfərdən danışıb. Qeyd edib ki, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu özünün qüdrəti ilə müstəqil dövlətimizin tarixinə şanlı səhifə yazaraq, işğal altında olan torpaqlarımızı düşmən tapdağından azad etdi. Həmçinin S.Salahlı qeyd edib ki, Azərbaycanının əldə etdiyi nailiyyətlər, eləcə də Qarabağ problemi hər zaman onun yaradacılığında da əsas yer tutub: “Təsadüfü deyil ki, “Başdaşı” və “İrəvana gedən yollar” əsərlərim məhz Qarabağ mövzusundan bəhs edir".

Dövlət Komitəsi sədrinin birinci müavini Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı xidmətlərindən danışıb. O qeyd edib ki, Azərbaycan xalqının Ümummilli Liderinin ölkədə insan hüquq və azadlıqlarının təmin edilməsində, mənəvi dəyərlərin qorunmasında, böyüməkdə olan nəsillərin sağlam ruhda tərbiyəsində, eləcə də elm, təhsil, mədəniyyət və digər sahələrin inkişafında müstəsna xidmətləri olub. Bu gün də bu siyasət uğurla davam etdirir.

Gəncləri təhsilə, elmə, mənəvi dəyərlərimizə daha da bağlı olmağa çağıran Səyyad Salahlı Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin fəaliyyəti barədə də ətraflı məlumat verib. Natiq dövlət başçısının müvafiq sərəncamları ilə DQİDK-nın tabeleyində Mənəvi Dəyərlərin Təbliği Fondu və Azərbaycan İlahiyyat İnstitutunun yaradılmasından, Dövlət Komitəsinin digər dövlət qurumları ilə birgə respublikamızda həyata keçirdiyi maarifləndirmə tədbirlərindən danışıb. Onu da bildirib ki, milli-mənəvi dəyərlərimizin qorunması, inkişafı və gənclər arasında təbliği istiqamətində mühüm işlər həyata keçirilməkdədir.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb.

# GƏNCƏDƏ “ŞUŞA BƏYANNAMƏSİ: MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZƏ SADİQLİK VƏ GƏLƏCƏK ƏMƏKDAŞLIQ ÜÇÜN YENİ ÇAĞIRIŞLAR” MÖVZUSUNDA KONFRANS OLUB




İyulun 28-də Gəncədə Yeni Azərbaycan Partiyası (YAP) ilə Türkiyənin Ədalət və İnkişaf Partiyası (AKP) arasında ikitərəfli Əməkdaşlıq Protokoluna uyğun olaraq “Şuşa Bəyannaməsi: milli-mənəvi dəyərlərimizə sadiqlik və gələcək əməkdaşlıq üçün yeni çağırışlar” mövzusunda konfrans keçirilib.

Konfransda YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov, AKP sədrinin birinci müavini Numan Kurtulmuş, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Milli Məclisin deputatları, dövlət qurumlarının əməkdaşları və elm xadimləri iştirak ediblər.

Əvvəlcə qonaqlar Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər.

Gəncə Heydər Əliyev Mərkəzi ilə tanış olan konfrans iştirakçılarına bildirilib ki, mərkəzin fəaliyyəti Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq ideologiyasının və irsinin dərindən öyrənilməsinə və tədqiqinə yönəlib.

Numan Kurtulmuş Heydər Əliyev Mərkəzinin xatirə kitabına ürək sözlərini yazıb.

Sonra Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçən qəhrəman Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Yeni Azərbaycan Partiyası ilə Türkiyənin Ədalət və İnkişaf Partiyası arasında imzalanmış ikitərəfli Əməkdaşlıq Protokolundan sonra ilk belə konfransın Gəncə şəhərində keçirildiyini qeyd edib. 44 günlük Vətən müharibəsinin Türkiyə-Azərbaycan münasibətlərinin zirvəsi olduğunu bildirən T.Budaqov qarşılıqlı əlaqələrin bundan sonra daha da inkişaf edəcəyinə əminliyini bildirib. İki ölkəni birləşdirən tarixi köklərin, mədəniyyətin, dinin və milli-mənəvi dəyərlərin olması ilə yanaşı, dövlət başçılarının qarşılıqlı münasibətlərinin də bu əlaqələrin yüksək səviyyəyə çatmasında böyük rol oynadığını vurğulayıb. Konfransın Gəncə şəhərində keçirilməsinin təsadüfi olmadığını qeyd edən YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri deyib ki, tarixən Gəncə Azərbaycanın milli istiqlal mübarizəsində, azadlıq və azərbaycançılıq ideyalarının həyata keçməsində müstəsna xidmətləri olmuş şəhərlərimizdəndir.

“Türkiyə - Azərbaycan dostluğu bizim milli köklərimizə əsaslanır və çoxəsrlik tarixə malikdir. Bütün zamanlarda bizim ürəyimiz türk qardaşlarımızla döyünüb, eyniylə onlarda olduğu kimi. Türkiyə Azərbaycanın hər bir problemini öz problemi, hər bir uğurunu öz uğuru kimi qəbul edib. Biz bunu bu gün əyani şəkildə bir daha görürük. Xüsusilə, 44 günlük Vətən müharibəsində Azərbaycanı istəməyən müxtəlif qurumların, təşkilatların təzyiqlərinə baxmayaraq, qardaş Türkiyə bizim yanımızda oldu”, - deyə Tahir Budaqov çıxışında qeyd edib.

AKP sədrinin birinci müavini Numan Kurtulmuş konfransın Vətən müharibəsindəki Zəfərdən sonra keçirilməsinin xüsusi əhəmiyyəti olduğunu vurğulayıb. Bildirib ki, Qarabağ zəfəri işğal altındakı ərazilərin azad olunması ilə birgə bütün dünyaya haqlı tərəfin hər zaman qələbə çalacağını göstərdi. Türkiyə Respublikası başda Prezident Rəcəb Tayyib Ərdoğan olmaqla, müharibənin ilk günündən Azərbaycanın yanında oldu. Bu gün məqsəd bu Qələbədən sonrakı nailiyyətləri daha yüksək səviyyəyə qaldırmaqdır.

“Qarabağ Zəfərinin əldə olunması ilə qazanılan nailiyyətlərdən biri də dünyanın ikili standartlar siyasətinin bir daha ortaya çıxarılmasıdır. Otuz ilə yaxın davam edən erməni işğalına başda Minsk qrupu olmaqla dünyadakı heç bir güc səsini çıxarmadı. Eyni formada BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrə rəğmən işğalın uzun illər davam etdiyini və bu qurumun heç bir tədbir görmədiyinin şahidi olduq. Möhtərəm Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan özü ədalətsizliyə son qoydu, dünyada daha bir haqsızlıq aradan qaldırıldı”, - deyə N.Kurtulmuş bildirib.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, AKP sədrinin xarici əlaqələr üzrə müavini, Bursadan deputat Efkan Ala, Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru professor İbrahim Cəfərov, SETA Araşdırmalar Mərkəzinin xarici əlaqələr üzrə mütəxəssisi professor Ferhat Pirinççi konfransda çıxış edərək Şuşa Bəyannaməsinin əhəmiyyətindən və gələcəkdə qarşılıqlı əlaqələrin inkişafındakı rolundan danışıblar.

Sonda qarşılıqlı xatirə hədiyyələri təqdim olunub, birgə şəkil çəkdirilib.

# MƏHƏRRƏMLİYİN MAHİYYƏTİ

Kərbəla faciəsi İslam tarixində çox böyük hadisə, hətta demək olar ki, dönüş nöqtələrindən biridir. Məhz buna görə də, hər il bəzi müsəlman ölkələrində bu gün xüsusilə qeyd edilir - mərsiyələr və rövzələr oxunur, sinə döyülür. Ki, bu adətlərə tarix səhifələrində İslamaqədərki dövrlərdə də rast gəlinir. Aşura günü müşahidə edilən bir "adət" də zəncir vurmaq, qılıncla baş yarmaqdır... Bəs görəsən, ortada Quran ayələri, hədislər və məşhur din alimlərinin rəyləri var ikən əsrlərdir müsəlmanların heç cür əl çəkmədikləri, hətta haram hökmündəki bu "adətlər" niyə günümüzədək yaşayır?

Bəli, Aşura günü Əhli-Beytə zülm edilib və bu faciə həqiqi müsəlman olan hər kəsi kədərləndirir. Ancaq biz müsəlmanlar bu günlərdə doğru-yanlış, həqiqi-uydurulmuş - fərq etməz, ayinləri icra edərkən Allahın hökmlərini unuduruq. Axı müsəlman üçün Onun ayələrinin fövqündə heç bir fətva, adət-ənənə dayanmır, dayanmamalıdır. İmam Hüseynə duyduğumuz sevgi, hörmət, ehtiram nə qədər gözəl olsa da, Allah sevgisi, hər şeydən əvvəl Onun buyruqlarına əməl etmək bizim borcumuz olmalıdır. Təəssüf ki, elmi-texnoloji tərəqqinin, bəlkə də, pik həddinə yaxınlaşdığı XXI əsrdə müsəlmanlar arasında hələ də qılıncla baş yaranlara, zəncir vuranlara, özünə xəsarət yetirənlərə rast gəlirik. Halbuki Allah Qurani-Kərimin "Bəqərə" surəsinin 195-ci ayəsində buyurur: "(Malınızdan) Allah yolunda xərcləyin və öz əllərinizlə özünüzü təhlükəyə atmayın. Yaxşılıq edin! Həqiqətən, Allah yaxşılıq edənləri sevir". Buradan belə aydın olur ki, hər bir müsəlman Allah-Təalanın insana əmanət etdiyi canı qorumağa borcludur. Heç bir müsibət insana canına qəsd etməyə bəraət qazandırmır. Ən acınacaqlısı isə odur ki, "Aşura özünəqəsdçiləri" bu hərəkətləri İmam Hüseyn yolunda etdiklərinə inanırlar. Bu düşüncənin nə qədər yersiz və faydasız olduğunu sübut etmək çox asandır. Əvvəla, hansı "Aşura özünəqəsdçisi" iddia edə bilər ki, İmam Hüseynin, onunla birlikdə haqqı qorumaq üçün Kərbəla çölünə gəlmiş, orada şəhid olmuş, yaxud yaralanmış, əsir düşmüş din fədailərinin orada yaşadıqlarını özünə xəsarət yetirməklə yaşaya bilər? Hansı ağıl, hansı məntiq sahibi deyə bilər ki, qılıncla baş yarmaq, özünü zəncirlə döymək İslamın, onun Peyğəmbərinin, Əhli-Beytin şəninə yaraşan davranışlardır? Hansı düşüncə sahibi iddia edə bilər ki, İmam Hüseyn bu gün sağ olsaydı, belə cahil hərəkətləri görüb bəyənərdi?

Təəssüf ki, bəzən yas tutmaqda da ifrata varan müsəlmanlara rast gəlirik. Halbuki bu barədə də Məhəmməd peyğəmbərin qoyduğu bir şəriət vardır: digər müsibətlər kimi, ölüm də Allahın hökm etdiyi hadisədir və bu hökmə üsyan etmək olmaz, onu səbirlə qarşılamaq lazımdır. Doğrudur, ölüm həm dünyasını dəyişən, həm də onun yaxınları üçün ağır dərddir. Ancaq biz bəşəriyyətin ən nümunəvi insanı qismində gördüyümüz Rəsulullahın həyatına baxsaq, bu məsələdə necə davranmalı olduğumuzu görərik. Cahilliyə dövründə ərəblərdə bir adət vardı. Belə ki, kiminsə başına müsibət gələndə qadınlar bir yerə toplaşaraq ağılar deyər, üzlərini və paltarlarını cırar, saçlarını yolar, ağlayardılar. İslamın bərqərar olmasından sonra Həzrət Məhəmməd bu hərəkətləri qadağan etdi: "Yanaqlarınızı cırmayın. Üst-başını cıran, cahiliyyə duası ilə dua edən bizdən deyildir". Hədislərdən birində deyilir ki, bir qadın Rəsulullahdan soruşur: "Ya Rəsulullah, bizim sənə asi olmayacağımız yaxşı əməl nədir?" Məhəmməd peyğəmbər deyir: "Matəm etməyin". Bu cavabı eşidən səhabələr Həzrət Peyğəmbəri oğlu İbrahim ölərkən ağlayan gördükdə təəccüb edirlər. Əbdürrəhman ibn Əfv soruşur: "Sən də ağlayırsan, ya Rəsulullah?" Rəsulullah cavab verir: "Ey ibn Əfv, bu mərhəmətdir!" - və ağlamağa davam edir. Sonra isə buyurur: "Gözümüz yaş tökər, qəlbimiz hüzn çəkər. Ancaq Rəbbimizi razı etməyəcək söz söyləmərik. Ey İbrahim, bizdən ayrılmağından hüzn çəkirik". Bu hadisə bir daha sübut edir ki, İslam dünyasını dəyişən insan üçün yas tutmağı qadağan etmir, ancaq hər şeydə bir ölçünün tərəfdarı olan dinimiz bu məsələdə də həddi gözləməyin tərəfdarıdır. Çox təəssüf müasir dövrdə də bəzi insanlar düşünürlər ki, hətta azyaşlı uşaqlarını da cəlb etdikləri Aşuranın əsas məqsədi ağlayaraq savab qazanmaq, bu yolla günahlardan arınmaqdır. Təsəvvür etmək belə çətindir ki, günümüzdə Aşura günü insanları ağlamağa məcbur etməyi, Kərbəla vaqiəsini teatrallaşdırılmasını (şəbih), guya saxladığı əzanın bir məscidin hüdudlarına sığmadığını iddia edərək bunu küçə yürüşlərinə çevirməyi vacib sayanlar da var. Əlbəttə, belələrinin məqsədi bəllidir: özünü kiməsə göstərmək, başqalarını getdikcə daralan xurafatçı dairələrinə cəlb etmək, öz uydurma davranışlarını dini ayin kimi qəbul etdirmək və s. Halbuki Məhərrəmlik mərasimləri İmam Hüseynin şəninə uyğun və amallarına yaraşan tərzdə qeyd edilməli, əzadarlıq mərasimlərində dinimizin təyin etdiyi əxlaqi meyarlara riayət olunmalı, təziyə məclislərində uşaqların iştirakına yol verilməməlidir.

Sevindirici haldır ki, son illər aparılan ciddi maarifləndirmə işləri sayəsində bu gün dindarlarımızın əksəriyyəti din adından istifadə edən belə qrupların əsl niyyətini anlayır və onların ardınca getmir. Çünki o görür ki, Vətəni Azərbaycan müsəlman ölkələri arasında bir ilkə imza ataraq keçmişdən qalan zərərli dini adətləri və əlamətləri dəf edib, onun əvəzində mütərəqqi, insani, humanist addımlar atmağa başlayıb. Qafqaz Müsəlmanları İdarəsinin Məhərrəmliklə bağlı fətvalarında baş yarmağın, qan tökməyin doğru hərəkətlər olmadığı, Aşura əzadarlığının qanun çərçivəsində keçirilməsinin zəruriliyi qeyd olunur, dindən sui-istifadə edərək Məhərrəmlik mərasimlərində qarşıdurma yaratmağa çalışan qüvvələrə qarşı ayıq-sayıq olmağa çağırılır, Kərbəla şəhidləri ilə yanaşı, Qarabağ, Xocalı şəhidlərimizin ruhuna dualar etmək tövsiyə olunur, insanlar qanvermə aksiyasında fəal iştiraka çağırılır. Özü də qanvermə aksiyası təkcə paytaxt Bakıda yox, respublikanın bir çox şəhər və rayonlarında yerləşən böyük məscidlərdə də təşkil olunur. Şeyxülislam Allahşükür Paşazadə başda olmaqla, onun müavinləri, o cümlədən, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı da həmin aksiyalarda məmnuniyyətlə iştirak edir (COVID-19 pandemiyası səbəbindən sözügedən tədbirlər ötən il keçirilmədi). İnsanlar qan verməklə xəstələrə yardım edir, daha humanist, daha xeyirli addım atırlar. Artıq bəzi müsəlman ölkələrinin başlatdığımız bu ənənədən istifadə etməsi bir daha sübut edir ki, Azərbaycan dövləti heç bir sahədə, o cümlədən, din sahəsində özgələrin fikirlərinə ehtiyac duymur. Əksinə, Azərbaycan dövləti Prezident İlham Əliyevin simasında başqalarına bir çox məsələdə yol göstərir, İslam dünyasının qarşısında duran çətin sualların həllində aparıcı qüvvə kimi iştirak edir və bütün bunları edərkən hər hansı "məqsəd" güdmür. Çünki siyasəti səmimidir və dinin hər zaman pak qalması, ülvi dəyərlərə xidmət etməsi, siyasətə alət olmaması onun ən ümdə məqsədlərindəndir.



***Səyyad Salahlı***
Dini Qurumlarla İş üzrə
Dövlət Komitəsi sədrinin birinci müavini

# DÖRD İNSAN

Qapalı həyat sürməsinə baxmayaraq, insan psixologiyasından yaxşı anlayan, rifaha can atan xristianları kəskin tənqid atəşinə tutan görkəmli alman filosofu və protestant ilahiyyatçısı Seren Kyerkeqor (1813-1855) bəşər övladının mahiyyəti ilə bağlı maraqlı fikirlər irəli sürmüş, dindarlığı ən üstün inkişaf forması saymışdır. O, insan həyatını üç mərhələyə (estetik, etik və dini) bölərək dörd cür insanın olduğunu demişdir: sıravi, estetik, etik, dindar.

Sıravi şəxs ətrafdakılar kimi yaşayır, işləmək, ailə qurmaq, yaxşı geyinmək və səlis danışmaq üçün səy göstərir. Sürü instinkti ilə hərəkət edir, axına qarşı çıxmır, şəraitlə barışır, həyatında nəyisə dəyişməyə çalışmır. Çünki o, seçmək imkanına malik olduğunu bilmir.



Sıravidən fərqli estetik insanda seçmək imkanı olduğunu bilir və anlayır ki, kütlənin dalınca getmək lazım deyildir. Ona görə də o, heç kəsdən asılı olmadan həzz və zövq dolu həyat seçir. Estetik gözəl yeməklər, yaxşı içkilər və cazibədar qadınlar sevir. Lakin məsuliyyət və borc hissindən uzaq ömür sürür. Xeyir və şər anlayışı ona yaddır. Estetik yalnız bu günlə yaşayır və həyatdan həzz alır. Əgər qarşısına maraqlı bir şey çıxmırsa, darıxmağa başlayır. O hiss edir ki, həyatı mənasız keçir.

Həyatında boşluq hiss edən estetik ümidsiz vəziyyətə düşdüyündən dolayı insan varlığının daha üstün mərhələsinə, yəni etik səviyyəsinə keçə bilər. Bu məqama çatan fərdin davranışının üzərində ağıl və borc duyğusu hakim olacaqdır. Etikdə məsuliyyət və borc hissi inkişaf etdiyindən o, həyatda boşluq hiss etmir. Ona xeyir və şər anlayışı yaxşı məlumdur. Nəyin yaxşı, nəyin pis olduğunu seçə bilir. Etik inanır ki, insan yalnız bir qadını sevməli, ömrü boyu ona sadiq qalmalıdır. O, gözəl əməllərə can atır, mənfi davranışlardan qaçır. Di gəl ki, bu mərhələyə çatan fərdin daxili dünyasında estetik və etik görüş arasında mübarizə gedir, çünki o, həzz almaq istəyindən tamamilə qurtulmayıb.

Mənəvi təlatüm yaşayan fərd sonda həm estetik, həm etik həyat tərzin məhdudluğunu anlaya və yenidən ümidsizlik girdabına yuvarlana bilər. Belə anda mənəvi sarsıntı yaşayan fərdin qəlbində birdən sıçrayış baş verə bilər. Onda insan dindar məqamına yüksələcəkdir. Bu səviyyəyə çatan kəs ağıl və hissiyyatdan asılı olmayan qəlb və iman ilə hərəkət edəcəkdir. Dindar adam başa düşür ki, o, mükəmməl deyildir, günahkardır və Tanrıya möhtacdır. Lakin o, səmimi-qəlbdən inanır ki, Uca Yaradan onu bağışlayacaqdır. Çünki Tanrı kamil, insan isə naqisdir.

# ULU ÖNDƏR VƏ DAHİ ŞƏXSİYYƏT

Ulu Öndər Heydər Əliyevə bir dəfə jurnalist belə bir sual verdi: "Siz şəxsiyyətə pərəstişə necə baxırsınız?" Ulu Öndərin cavabı belə oldu: "Şəxsiyyət olmalıdır ki, ona da pərəstiş olsun". Bəli, böyük şəxsiyyət olmadan o şəxsiyyətə pərəstiş də olmaz. Heydər Əliyev BÖYÜK ŞƏXSİYYƏT idi. Onun fəaliyyətini 1969-cu ildən 2003-cü ilə qədər daimi izləyənlərdən biri kimi bu nəticəyə dəfələrlə, bəlkə də, min dəfələrlə gəlmişəm. Bu dediyim adi söz olmasın deyə, Ulu Öndər Heydər Əliyevlə bağlı şəxsən iştirakçısı olduğum və yadımda qalan bəzi hadisələr haqqında xronoloji qaydada məlumat verəcəyəm.

Atam və anam kənd orta məktəbində təqaüdə çıxana qədər müəllim işləyiblər. Ziyalı olmaları səbəbindən evimizdə həmişə Azərbaycan, SSRİ və dünyanın bir çox ölkələrindəki müxtəlif siyasi, iqtisadi və s. məsələlər müzakirə olunurdu və onlara qiymət verilirdi. Mən də həmin vaxt 10 yaşlı əlaçı oxuyan şagird kimi, bəzən bu müzakirələrdə iştirak edərək əksər hallarda suallar verir, cavablar alırdım. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyulun 14-də keçirilmiş plenumunda Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi seçiləndə bu hadisəyə və Heydər Əliyev şəxsiyyətinə çox böyük önəm verildiyinin şahidi oldum. Sadə bir zəhmətkeş ailədən olmasına baxmayaraq, öz işgüzarlığı və zəhmətkeşliyi sayəsində Azərbaycan Dövlət Təhlükəsizliyi Komitəsinin ilk azərbaycanlı sədri və generalı səviyyəsinə çatmasını fəxrlə qeyd edirdilər. Onların dilindən Heydər Əliyevin sayəsində iqtisadiyyatı və s. mühüm sahələri çökməkdə olan Azərbaycanın dirçələcəyinə böyük ümid etdiklərini dəfələrlə eşitmişdim. Sonrakı dövrlərdə Azərbaycan ziyalılarının bu proqnozu, belə demək mümkünsə, 100% təsdiqini tapdı.

1975-cı ildə yaşadığım rayondan "Gənclərin döyüş və əmək şöhrəti yerlərinə yürüşü" adlı bir tədbirdə iştirak etmək üçün Azərbaycanın bütün rayonlarından olan gənclərlə birgə Bakı şəhərinə gəlmişdim. Həmin vaxtlar Bakının bir çox yerində, o cümlədən tikilməkdə olan və həmçinin SSRİ-də yeganə olan Bakı Kondisionerlər zavodunda və SSRİ-nin müsəlman respublikalarından birində ilk dəfə hərbi kadrlar hazırlayan General Cəmşid Naxçıvanski adına Hərbi Məktəbdə olduq. Bizi müşayiət edənlər hər iki müəssisənin yaradılmasında Heydər Əliyevin müstəsna rolunun olduğunu dəfələrlə qeyd etdilər və mən onda deyilənlərdən belə nəticəyə gəldim ki, xristian SSRİ rəhbərliyi yanında dahi şəxsiyyət müsəlman Heydər Əliyev o qədər böyük hörmətə malikdir ki, Sovet İttifaqında bu iki müstəsna əhəmiyyətli müəssisənin Azərbaycanda yaradılmasına icazə verilmişdir. Belə ki, Kondisioner zavodunun əvvəlcə Zaporojets şəhərində tikilməsinə qərar verilmişdi. Sonradan Heydər Əliyevin gərgin əməyi, eyni zamanda hörməti nəticəsində qərar dəyişdirildi. Bildiyimə görə, Azərbaycanda qısa müddətdə 250-dən çox yeni zavod, fabrik və istehsalat sahəsi inşa olundu.

Çar Rusiyasının ənənələrinə uyğun olaraq sovet dövründə də Azərbaycan gəncləri orduya xidmətə çağırılarkən yüksək ixtisaslı mütəxəssisləri hazırlayan hərbi məktəblərə yox, əksər hallarda ümumi hərbi hissələrə göndərilirdi. Bu qeyri-normal vəziyyətin qarşısını almaq üçün dahi rəhbər Heydər Əliyevin təşəbbüsü ilə 28 iyul 1971-ci ildə Azərbaycan Kommunist Partiyası M.K. bürosunda "Respublika hərbi komissarlığında gənclərin sovet ordusu sıralarında xidmətə hazırlanması və hərbi məktəblərin kompleksləşdirilməsi haqqında" 331 N-li qərar qəbul edildi. Həmin qərara əsasən, Bakıda General Cəmşid Naxçıvanski adına Hərbi Məktəb yaradıldı. Tarix göstərdi ki, bu qərar ancaq dahi şəxsiyyət tərəfindən böyük uzaqgörənliklə hazırlana bilər. Belə ki, peşəkar hərbi kadrlar hazırlayan bu məktəbin məzunları birinci və ikinci Qarabağ müharibələrində Azərbaycan Milli Ordusu tərkibində erməni işğalçılarına qarşı böyük qəhrəmanlıqla vuruşmuşlar, şəhidlər vermişlər. Məktəbin məzunları arasında 10 general, 1 admiral və 9 Milli Qəhrəman var.

1976-cı ildə Kiyev şəhərində sərbəst güləş üzrə ümumittifaq yarışında idim. Həmin vaxt Sovet İttifaqı Kommunist Partiyasının XXII qurultayı keçirilirdi. Qurultayda Ulu Öndər Heydər Əliyev 22 milyon üzvü olan Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü və Siyasi Bürosu üzvlüyünə namizəd seçildi. Başqa respublikalardan olan güləş komandalarının üzvləri bu münasibətlə komandanın digər üzvləri ilə yanaşı, məni də bir azərbaycanlı kimi dəfələrlə təbrik etdilər və biz bundan böyük fəxr hissi keçirdik. Onu da qeyd edim ki, bədnam erməni qonşularımız da bizi, üzdə də olsa, təbrik etdilər və öz rəhbərlərini pis işləyən, hörmətsiz şəxslər kimi söydülər.

Dahi şəxsiyyət Heydər Əliyev Azərbaycana rəhbərliyi dövründə bir çox azərbaycanlı tələbəni SSRİ-nin tanınmış ali məktəblərinə təhsil almağa göndərmişdir. Və mənə də - atası və anası kənd orta məktəbində müəllim işləyən N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun abituriyentinə də həmin tanınmış ali məktəblərdə təhsil almaq təklif olundu. Lakin valideynlərimin arzusu ilə mən təhsilimi Azərbaycanda davam etdirdim. Sonrakı müşahidələr göstərdi ki, Azərbaycanda müxtəlif sahələrin inkişafı üçün SSRİ-nin tanınmış ali məktəblərinə ölkəmizdən göndərilmiş və sonradan vətənə qayıdan məzunların böyük töhfələri olmuşdur. Bu fakt da Heydər Əliyevin dahiliyini və uzaqgörənliyini bir daha təsdiq edir.

1982-ci ildə Ümummilli Lider Heydər Əliyev 250 milyondan çox əhalini idarə edən Sovet İttifaqı Kommunist Partiyasının 21 nəfərdən ibarət Siyasi Bürosuna üzv və SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini seçildi. İş elə gətirmişdi ki, mən həmin vaxt yenə də Azərbaycandan kənarda idman yarışında idim. Yenə də bu münasibətlə məni dəfələrlə təbrik etdilər və mən bundan da böyük fəxr hissi keçirib, Heydər Əliyevin dahiliyinin bir daha şahidi oldum. Həmin vaxtdan dahi Heydər Əliyev şəxsiyyətinə hörmət və sevgi əlaməti olaraq Ulu Öndərin fotosunu kirayə qaldığım evin nəzərəçarpan yerinə qoydum. Bu foto sonralar da yaşadığım müxtəlif evlərdə, o cümlədən bu gün də yaşadığım evdə, iş otağımda ən nəzərəçarpan yerdədir.

Sonrakı illərdə də Heydər Əliyevin dahiliyini isbat edən hadisələrin dəfələrlə şahidi oldum. 1982-1987-ci illərdə SSRİ Nazirlər Sovetinin Sədrinin birinci müavini kimi SSRİ-nin bir çox mühüm nazirliyinə və onların apardığı işlərə rəhbərlik edirdi. Bunların ən bariz nümunəsi Baykal-Amur magistralı idi. Bu nəhəng layihənin həyata keçirilməsinə ancaq Heydər Əliyev kimi dahi şəxsiyyət rəhbərlik edə bilərdi.

Mixail Qorbaçov kimi minüzlü şəxsin siyasətinə etiraz olaraq yüksək vəzifədən istefanı da ancaq Heydər Əliyev kimi dahi edə bilərdi. İstefadan sonra ağır xəstə olmasına baxmayaraq, 20 Yanvar hadisələrinə ilk və çox kəskin etiraz edən şəxs Heydər Əliyev kimi dahi bir şəxsiyyət ola bilərdi – öz sağlamlığını və həyatını risk qarşısında qoyaraq.

Azərbaycan dövlətinin varlığının itirilməsi təhlükəsi qarşısında Azərbaycana rəhbərlik edə biləcək yeganə dahinin Heydər Əliyev olduğunu bilən xalq onu yenidən ölkə rəhbərliyinə dəvət etdi. Və bu dəvətin nə qədər düzgün olduğunu sonrakı hadisələr bir daha təsdiq etdi. Belə ki, çörək çatışmazlığı, "Talış-Muğan Respublikası" problemi, sadval problemi, qanunsuz silahlı dəstələr problemi, cəbhədə itkilərimizin artmasının qarşısını alan atəşkəs və s. bu kimi hadisələri ancaq Heydər Əliyev kimi dahi həll edə bilərdi və etdi də. Ulu Öndər Heydər Əliyevə Allah rəhmət eləsin. Ötən əsrin 90-cı illərinin əvvəllərindən Azərbaycana dahi şəxsiyyət olan Heydər Əliyev rəhbərlik etsəydi, nə Dağlıq Qarabağı müvəqqəti də olsa itirərdik, nə orada erməni vəhşiliyi nəticəsində çoxsaylı günahsız insan tələfatı olardı, nə mədəni və dini abidələrimiz, iqtisadiyyatımız talan edilər və dağıdalar, nə də ki iyirminci əsrin ən böyük faciələrindən olan Xocalı faciəsi baş verərdi. Çox təəssüf. Çox şükürlər olsun ki, dahi Heydər Əliyevin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Ali Baş komandan İlham Əliyev böyük siyasi iradə və uzaqgörənliyi sayəsində 44 günlük Vətən Müharibəsi ilə torpaqlarımız işğaldan azad olundu.

1994-cü ildə Azərbaycanda dövlət çevrilişinə cəhd olanda da Heydər Əliyev kimi dahi onun öhdəsindən gələ bilərdi və gəldi də. Bir çağırışla mən də onların içərisində olmaqla Azərbaycanı və Heydər Əliyevi sevən yüzminlərlə azərbaycanlı Prezident Aparatının qarşısında toplaşdı və birlikdə dahi Heydər Əliyevə dəstək olduq.



*Dahi şəxsiyyətin 40 ildir iş otağımda olan şəkli*

Bu gün "Azərbaycanın dünyaya günəş kimi doğacağını" Heydər Əliyev kimi dahinin səyləri nəticəsində olduğunu artıq bilirik. Belə ki, XX əsrin ən böyük layihələrindən biri olan və dünyanın ən böyük neft şirkətlərinin iştirakı ilə "Əsrin müqaviləsi"nin bağlanması onun kimi dahinin titanik zəhməti sayəsində mümkün oldu.

Heydər Əliyevin dahiliyini isbat edən bu kimi fakt və hadisələrdən çoxsaylı misallar gətirmək olar. Tək mənim yaddaşımda olanları xronoloji qaydada tam yazsam, böyük bir kitab alınar. Məncə, bunlara daha ehtiyac yoxdur. Çünki uzunmüddətli müşahidələrimiz göstərir ki, Heydər Əliyevin dahiliyini hamı qəbul edir. Hətta vəfatından sonra da Ulu Öndərə Azərbaycan xalqının nə qədər böyük məhəbbətinin olmasının şahidi olduq. Belə ki, 2003-cü ilin soyuq dekabr ayında Heydər Əliyevin nəşinin Azərbaycana gətirildiyini bilən çoxsaylı vətəndaşlarla birgə mən də Prezident Aparatının pillələnləri və girişi üzərinə tər gül dəstələri düzdük. 2003-cü ildən bu yana hər il Ümummilli Liderin məzarını mən də daxil olmaqla yüzminlərlə insanın ziyarət etməsi Heydər Əliyevin dahiliyinin, xalqımızın onun əbədiyaşar xatirəsinə duyduğu sonsuz ehtiramın əyani sübutlarındandır.

Bir daha qeyd edim ki, Heydər Əliyevin dahiliyinin nümunələrindən biri də onun davamçısı Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevdir. Bu iki dövlət başçısının Azərbaycan üçün etdiklərini ancaq dahilər edə bilərlər. O dahilər ki vətənlərini öz canları qədər sevirlər. Allah Ulu Öndər və dahi şəxsiyyət Heydər Əliyevin şah əsəri olan Azərbaycanı qorusun. Amin!

"Vətəni sevməyən insan olmaz, olsa da o şəxsdə vicdan olmaz". Mənim fikrimcə, Vətəni sevmək üçün ən birinci şərt odur ki, hər kəs öz öhdəsinə düşən işi vicdanla yerinə yetirməlidir. Bunun üçün ən əsas şərt isə işləmək, işləmək, yenə də işləməkdir – rəhmətlik Ulu Öndər Heydər Əliyev və Allahdan ömrünə bərəkət dilədiyim cənab Prezident İlham Əliyev kimi. Bəli, cənab Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin yorulmadan işləməsi nəticəsində Azərbaycan xalqının ən böyük problemi olan və həlledilməz kimi görünən Qarabağ problemi öz ədalətli həllini tapdı!

Eşq olsun dahilərimizə! Qarabağ Azərbaycandır!

**Elçin BİLALOĞLU,**
*Azərbaycan Respublikası Səhiyyə Nazirliyi*
*Milli Onkologiya Mərkəzinin həkimi*

# SÖZÜN SEHRİ

Əslində, hamımız sehrbazıq. Bəli, səhv oxumadınız, hamımız sehrbazıq. Söylənilən bir cümlə və ya söz bir insanın həyatını, hətta ölkələrin taleyini müsbət, yaxud mənfi yöndə dəyişdirmək qüdrətinə sahibdirsə, bunun adı sehrbazlıq deyil, bəs nədir?

Tarix yazan liderlər sözləriylə təsir etmədilərmi xalqlarına? Tarixin ən dəhşətli qırğınları sözlərdəki sehrlə törədilmədimi? Gözəl bir sözlə aşiq olmadıqmı? Həkimin söylədiyi bir sözlə sağalmadıqmı? Ən dərin hüzndən yaxın dostumuzun söylədiyi bir cümlə ilə özümüzə gəlmədikmi?

Küsdüyümüz həyatı yenidən, hətta daha əzmlə davam etdirmək üçün çıxardığımız hayqırtıdı söz. Bir uşağın uğursuzluğa yuvarlanmasına səbəb olacaq qədər güclü, bir müəllimin söylədiyi ilə dünyanı dəyişdirəcəyinə qərar verəcəyi qədər böyük stimuldur söz. Ağlayan uşağı anasının bircə sözü susdurar, gülümsədər. Qırğınlar törədəcək qədər diktator, bir ulusun tarixini yenidən yazacaq qədər qərarlıdır söz.

Bu qədər təsirlidirsə, deməli, sözlərlə rəqs etməyi öyrənmək lazımdır bu həyatda. Eyni ərzaqdan fərqli dadda, çeşid-çeşid yemək bişirə biləcəyimiz kimi, eyni sözlərlə fərqli mənalara gələn fikirlər istehsal edə bilərik. Aşağıdakı qısa hekayə bunun ən gözəl nümunələrindəndir bəlkə də.

"İki yoldaş siqaret çəkərkən İncil oxumağın qadağan olub-olmadığı mövzusunda mübahisə edirlər. Mübahisələri nəticəsiz qalınca Papanın yanına gedib, onun fikrini öyrənmək qərarına gəlirlər. Ancaq onlardan yalnız biri Papa ilə görüşməyə icazə ala bilir. İzn ala bilənin sualı:

- Papa həzrətləri, İncil oxuyarkən ürəyim siqaret çəkmək istəsə, çəkə bilərəmmi?

Papa cavab verir:

- Oğlum, İncil oxuyarkən fikrin Tanrının yanında olmalıdır, diqqətin yayınmamalıdır. Bu səbəbdən, İncil oxuyarkən siqaret çəkmək olmaz".

Papa ilə görüşmək üçün icazə ala bilməyən gəncin sualı isə belə idi: "Papa həzrətləri, siqaret çəkərkən ürəyim İncil oxumaq istəsə, oxuya bilərəmmi?"

Eyni sözlərdən qurulan bu iki sualın tamamilə fərqli anlam daşıdığı və şübhəsiz, cavablarının da bir-birindən əks qütbdə durduğu gün kimi aydındır. Ümumiyyətlə, biz çox vaxt nəyi istədiyimizdən deyil, nəyi istəmədiyimizdən danışırıq. Məsələn, bir yerə gedən yaxınımıza "gecikmə" deyərik, "mənə qarşı belə davranmağını istəmirəm", "mən bu gün bu işi etmək istəmirəm" kimi cümlələr qurarıq. Bu cümlələr qarşımızdakına nəyi istəmədiyimizi izah edər, amma nəyi istədiyimizi anlatmaz. Sosial şəbəkədə elan verən bir turizm şirkətinin "paylaşımının" altında bir nəfərin yazdığı şərhə diqqət yetirin: "Təklif etdiyiniz otel necə yerdədi? Mən səs-küylü, yola yaxın yerdə gecələmək istəmirəm". Müştəri nə cür yerdə gecələmək istəmədiyini yazır və bəlkə özü də bilmədən kontur-sual yaradır: "Bəs necə yerdə gecələmək istəyirsiniz?" Halbuki necə yerdə qalmaq istədiyini birbaşa yazsa, sualını daha aydın ifadə etmiş və daha aydın cavab almış olmazdımı? Bu, mağazaya girib satıcıya "mən alma istəmirəm" deməyə bənzəyir. Sizə bunu



desələr, cavabında "bəs nə istəyirsiniz" deyə soruşmazdınızmı? Deməli, insan əvvəlcə nəyi istədiyini bilməlidir ki, qarşısındakına fikrini çatdıra bilsin. Konfutsinin təbirincə desək, "Nə istədiyini bilməyən adam nə tapdığını anlaya bilməz".

Danışarkən tərsinə ifadə etdiyimiz və artıq qəlibləşmiş misallar da az deyil. Məsələn, uşaq qaçır, ana ona "qaçma", - deyə səslənir, yaxud "yeməyi üzərinə tökmə", yaxud bir yoldaşımıza "siqaret çəkmə" dediyimiz hallar olur. Yaxşı, indi mən sizə "qırmızı avtomobil düşünməyin" deyirəm. Amma siz avtomatik olaraq qırmızı avtomobil düşündünüz. Niyə düşündünüz? Çünki beyin eynilə "google" kimi işləyir. Nədən danışılırsa, avtomatik yaddaşımızda həmin mövzudakı hər şeyi axtarmağa başlayır. Qorxudan bəhs ediriksə, dərhal qorxduğumuz şeylər gəlir gözümüzün önünə. Halbuki, "qorxma" əvəzinə, "sakit ol" deyilsə, daha effektli olmazmı? "Bura zibil atmayın" lövhəsi asılmış yerlərdəki tullantılara fikir vermisinizmi heç? Yaxud müharibəyə etiraz edənlərin şüarlarındakı "müharibə" sözlərinin bolluğuna diqqət yetirmisinizmi? Bu nümunələr bir daha sübut edir ki, istər pozitiv, istərsə də neqativ – nədən danışılırsa, zehnimizdə dərhal həmin şey canlanır.

Danışıqda çox istifadə etdiyimiz və belə deyək, ən çox qəlb qıran, "ev yıxan" sözlərdən biri də "amma"dır. Bir neçə misalla bunun izahını verməyə çalışaq: "Səni sevirəm, amma...", "Bu işi çox gözəl düşünmüsən, amma...", "Çox yaradıcı fikirdir, amma...", "Sən çox yaxşı insansan, amma...", "Sən yaxşı işçisən, amma..."

Bu cümləri özünüz tamamlayın və sizə deyildiyini düşünün. Nə hiss edirsiniz? Cümlə xoş təəssüratla başlayır, amma əslində, neqativ duyğu aşılamırmı?

Çox qəribə sözdür "amma", özündən əvvəlki cümləni darmadağın edir sanki. Buna görə də "amma" ilə davam edən mürəkkəb cümlə qurarkən, cümlənin ikinci deyil, birinci hissəsinin "mənfi enerji daşıyıcısı" olmasına diqqət yetirməliyik. Məsələn, "Çox nadinc uşaqsan, amma səni çox istəyirəm", "Bu gün çox yorulduq, amma nəticəyə baxsaq, yorulmağa dəyərdi", "Bu işdə müəyyən natamamlıqlar var, amma görünür ki, xeyli əziyyət çəkmisiniz", "Çox əsəbisən, amma yaxşı insansan" və s.

Müzakirə və mübahisələrdə tez-tez rast gəlinən məsələ tərəflərin bir-birinə tuşladıqları tənqidlər və hər cümlənin önünə qoyulan "sən" ittihamıdır: "Sən həmişə gecikirsən", "Səninlə iş görmək olmaz", "Sən elə bilirsən, bu işin öhdəsindən gələ biləcəksən?" və s.

Bu, başdan-ayağa qarşıdurma dilidir, suçlayıcı, incidici, cavab haqqı doğuran və ən önəmlisi, problemi anlamağa imkan verməyən üslubdur. Halbuki "sən" əvəzinə, "mən" sözü ilə başlayan cümlələr qursaq, bu, həm qarşı tərəfi incitməz, həm də istədiyimiz nəticəni alarıq: "Sözümə baxmayanda məni sevmədiyini düşünürəm", "Bu cür davranışın mənim xətrimə dəyir", "Sözümün kəsilməsindən narahat oluram".

Şablon ifadə var: nə anlatdığımız deyil, necə anlatdığımız önəmlidir. Bir şeyi söyləməyimiz hələ qarşımızdakının bunu eşitdiyini göstərmir. Eşitməsi isə anladığı mənasına gəlməz. Məqsədimiz sözləri göyə sovurmaq deyilsə, niyə düzgün anlaşılmağı istəməməliyik? Üstəlik, düzgün başa düşülmək arzusu sevilmək arzusu qədər güclü ikən…

# LƏKİT KİLSƏSİ

Məbəd Qax rayonunun Ləkit kəndindən 1 kilometr aralıqda yerləşir. Mütəxəssislər inşaat texnikası baxımından alban memarlığının ən gözəl nümunələrindən olan Ləkit kilsəsinin tikilmə tarixi haqqında müxtəlif fikirlər söyləmişlər. Rus alimi P.D.Baranovski məbədin VII əsrdə, K.M.Məmmədzadə isə onun Kilsədağ kilsəsindən sonrakı dövrdə, təxminən VI əsrin ortalarında inşa edildiyini yazmışdır. Məbədin elmi cəhətdən öyrənilməsi və bərpa işləri XX əsrin 40-cı illərində P.D.Baranovskinin rəhbərliyi ilə aparılmışdır. Onun ətrafı meşəlikdən təmizlənmiş və dağılmaqda olan divarlardan biri möhkəmləndirilmişdir.



Kilsə qədim zərdüşt məbədi əsasında inşa edilmişdir. Təqribən IV əsrdə Albaniya hökmdarı III Mömin Vaçaqanın hakimiyyəti dövründə Xristianlıq ölkənin rəsmi dini olmuşdur. Musa Kalankatlı məhz bu hökmdarın dövründə Albaniyada Xristianlığın geniş təbliği, digər dinlərin isə təqib edilməsi haqqında məlumat vermişdir. Həmin dövrdə Qafqaz Albaniyasında bir çox əski dinlərə məxsus məbədlər xristian elementləri əlavə edilərək kilsələrə çevrilmişdir. Mütəxəssislər müəyyən etmişlər ki, Ləkit məbədi kilsəyə çevrilərkən onun əsas memarlıq quruluşuna toxunulmamış, yalnız Xristianlığın ehkamlarına uyğun olaraq səcdəgah əlavə edilmişdir.

Diametri 22 metr olan məbədin dairəvi sütunlar üzərində tikilməsi vaxtilə öz möhtəşəmliyi ilə hamını heyran edirdi. Çox təəssüf ki, sonralar diqqətdən kənarda qalaraq dağılmışdır. İndi isə onun yalnız divarları qalmışdır. Məbəd vaxtilə üçyaruslu, günbəzli kompozisiyaya malik olmuşdur. Dairənin daxili künclərindəki dörd qalın pilon günbəzaltı kvadratı əmələ gətirərək kompozisiyanın əsasını təşkil edir. Pilonlar arasında üç-üç düzülmüş sütunlar planın ümumi kompozisiyasında tetrakonx əmələ gətirmişdir. Hər pilonun xarici tərəfində duran əlavə sütunlar isə yuxarı yarusun divarları üçün dayaq rolunu oynayır. Yuxarı yarus divarları da öz növbəsində sütunlar üzərində durub, planda dairə formasına keçir. Arxeoloji qazıntı nəticəsində aşkara çıxarılmış hissədə sütun və pilonların hündürlüyü 1,2 metrdir. Qum bazilikasında tətbiq edilmiş inşaat üsulları eynilə Ləkit kilsəsində də təkrar edilmişdir. Lakin buradakı çay daşları nisbətən kiçik ölçülüdür. Məbəd hərəsi bir metr diametri olan 3 sütunu, 4 divar oyuğunu – apsisi əmələ gətirən tetrakonxdur. Tetrakonxun 4 küncündə bütün apsidalar üçün əsas yaradan 4 pilon yerləşdirilmişdir. Həmin pilonların daxili əyilmiş, küncü iri valla tərtib edilmişdir. Bu val pilonun bütün hündürlüyü boyunca keçdikcə apsidaların tağlarını əyir. Pilonların arxasında ayrı-ayrı yerləşən sütunlar səkkizguşəli özülün dayağı rolunu oynayır. Səkkizguşəli özül üzərində 4 apsida yerləşir. Pilonların üzərində günbəzlə tamamlanan dairəvi barabanın kvadrat əsası yerləşmişdir. Apsidalardakı sütunların cüt olmayan miqdarı və mərkəzi sütunun, girişlərin əksinə yerləşməsi Zərdüştlüyün müəyyən mərasim məqsədlərini güdür.

Qax rayonunun digər məbədləri kimi, Ləkit kilsəsi də keşməkeşli tarixi ilə Azərbaycan xüsusi memarlıq nümunələri arasındadır.

## “KÖNÜLLÜMÜZ OL” LAYİHƏSİNİN BİR QRUP İŞTİRAKÇISINA SERTİFİKATLAR TƏQDİM OLUNUB



İyulun 2-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) təcrübə keçmiş “Könüllümüz ol” layihəsinin bir qrup iştirakçısına sertifikatlar təqdim olunub.

Dövlət Komitəsinin Ümumi şöbəsinin müdiri Amil Cavadov Prezident İlham Əliyevin gənclərin inkişafına yönələn dövlət siyasətini daim diqqət mərkəzində saxlamasından, bu istiqamətdə respublikamızda görülən işlərdən bəhs edib. O bildirib ki, dövlət başçısı tərəfindən dövlət orqanlarının qarşısına gənclərin potensialından daha səmərəli istifadə etmək, cəmiyyətin bütün sahələrində onların fəal iştirakına şərait yaratmaq, gənclərə peşə vərdişlərini aşılamaq və təcrübi biliklərini artırmaq vəzifəsi qoyulub. Şöbə müdiri bu məqsədlə DQİDK tərəfindən 1 il müddətində “Könüllü fəaliyyət” layihəsinin reallaşdırıldığını deyib.

Təcrübə kursunu müvəffəqiyyətlə başa vurmuş gəncləri təbrik edən Amil Cavadov onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Daha sonra könüllülərə sertifikatlar təqdim edilib.

## DQİDK ƏMƏKDAŞININ MƏQALƏSİ HİNDİSTAN MƏTBUATINDA YAYIMLANIB

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Xarici əlaqələr şöbəsinin müdir müavini Aqşin Axundovun “Hindistanla əlaqələr kontekstində Azərbaycanın tolerantlıq modeli” adlı məqaləsi Hindistanın “Business Central Asia” jurnalının iyun buraxılışında dərc edilib.

Məqalədə Azərbaycan haqqında ümumi məlumat verən müəllif ölkənin tarixi, ərazisi, əhalisi, dini müxtəlifliyi, tolerant, multikultural ənənələri ilə yanaşı, Ermənistanın ölkəmizə qarşı təcavüzü və düşmən vandallığına məruz qalan dini abidələrimizlə bağlı məsələlərə də toxunub. O qeyd edib ki, Azərbaycanın tarixi inkişafının xüsusiyyətləri, coğrafi mövqeyi, əhalisinin etnik tərkibi bu ərazidə müxtəlif dinlərin mövcudluğuna şərait yaradıb, ayrı-ayrı dövrlərdə Bütpərəstlik, Zərdüştilik, İudaizm, Xristianlıq, İslam və bir çox dini cərəyan ölkəmizdə bu və ya digər dərəcədə yayıla bilib, bir-birinə qarşılıqlı təsir göstəriblər.

Eyni zamanda Azərbaycan-Hindistan arasındakı mədəni əlaqələrin tarixi qədimliyindən bəhs edən A.Axundov hazırda ölkəmizdə 200-ə yaxın hindlinin yaşadığını, Bakıdakı icma evində yığışan krişnaitlərin müxtəlif bayramlarını və ibadətlərini sərbəst şəkildə qeyd etdiklərini bildirib.



MULTICULTURALISM

Azerbaijani model of tolerance in context of relations with India

Overview

Located in the South Caucasus region, the Republic of Azerbaijan is bordered by Russia, Georgia to the north, Armenia, Turkey to the west and Iran to the south. The territory of Azerbaijan is extremely rich in archeological monuments, proving that it is one of the oldest human settlements in the world. Archaeological finds in the Azykh, Taglar, Damjili, Dashsalahli caves in the Gazakh region, also Gazma cave in Nakhchivan, as well as the jawbone of an ancient man who lived 300,000-400,000 years ago, prove that Azerbaijan entered the area where primitive people were formed. Due to this unique discovery, Azerbaijan was included in the map of “Europe's oldest inhabitants.” It should be noted that the people of Azerbaijan are also one of the world's oldest traditions of statehood.

*The multiculturalism and tolerance, historically inherent in the lifestyle of Azerbaijanis, today have become an integral feature of the daily life of every citizen of the Azerbaijani state.*

**Azerbaijan, a predominantly muslim population** country, is also home to other ethnic and religious groups, including ancient Zoroastrian, Christian and Jewish communities. Respect and tolerance for national minorities have played a vital role in the development of the country from the days of the Silk Road to the present.

Muslim East, has left a deep mark on the history of Azerbaijani statehood, despite living only 23 months of independence. After living under the USSR for 70 years, Azerbaijan declared its independence for the second time on October 18, 1991.

*The Church of Kish, archeologists believe may be nearly 1,500 years old, built by Caucasian Albanian Christians who lived in the region.*

Azerbaijan, which has always lived in peace and friendship with neighboring countries, suffered from Armenian aggression for more than 30 years. Nagorno-Karabakh and surrounding Lachin, Kalbajar, Gubadli, Zangilan, Jabrayil, Aghdam (most of the district center and territory), Fizuli (most of the district center and territory) administrative districts of the Republic of Azerbaijan were occupied by Armenia in 1989-1993. In addition, genocide was committed by Armenians against Azerbaijanis - in Khojaly city, 613 of our compatriots were killed in one night with special cruelty, insulting actions were committed on the corpses. During the massacre, 8 families were killed, 25 children were deprived of both parents, 130 children were deprived of one of their parents, 487 civilians in Khojaly were seriously injured and 1,275 people were taken hostage. More than 1 million Azerbaijanis were expelled from their homes and became refugees and internally displaced persons.

Despite the condemnation of Armenia's policy of aggression by various international organizations, including the UN Security Council, and the adoption of four resolutions on the liberation of the occupied territories, Armenia did not renounce its policy of aggression, on the contrary regularly violated the ceasefire, resulting in the deaths of civilians as well as the military.

There are 876 historical, cultural and religious monuments left in the occupied territories of Azerbaijan, of which 87 are mosques, 68 are tombs and 31 are Albanian temples. Almost all of them were destroyed, insulted turning into a pigsty or Armenianized. Along with these thousands of our historical and cultural monuments in the territory of present-day Armenia were destroyed.

Despite the expulsion of more than one million Azerbaijanis from their lands and the terror of thousands of our compatriots, no discrimination is allowed against more than 30,000 Armenians living in our country. Despite the destruction of numerous religious, cultural and historical monuments in the occupied Nagorno-Karabakh region by Armenian armed forces, the Armenian Church in the center of Baku is protected by the Azerbaijani state. These facts alone are a clear evidence of the highly tolerant and multicultural morality of the Azerbaijani state and people.

*The recently restored Yukhari Govharagha mosque in Shusha.*

On July 12, 2020 in the direction of the Tovuz region of the state border between Azerbaijan and Armenia, Armenian military units grossly violated the ceasefire and resorted to provocation. As a result of this sudden and treacherous attack, Azerbaijani servicemen and civilians were killed and wounded.

Last year from September 27 till November 10, as a result of the military attacks launched by the Armenian side Azerbaijani settlements, as well as historical and religious monuments have been regularly hit by heavy artillery. Consequently, a total of almost 100 civilians including children and women were killed.

Azerbaijan did not tolerate the long-term aggression of Armenia and carried out successful counter-offensive operations. As a result, Armenia was severely defeated, and the occupied territories of historical Azerbaijan were liberated from Armenian oppression.

On November 10, 2020 the Presidents of Azerbaijan, Russia and the Prime Minister of Armenia signed a joint statement on the ceasefire.

Soon Azerbaijan will carry out construction works in the liberated territories, including the restoration of all historical and religious monuments.

Features of the historical development of Azerbaijan, geographical position,

## HƏYATLA ÖLÜM ARASINDA

Hər insan həyatın müvəqqəti olduğu və sonu barədə düşünür. Bu hiss ona güclü emosional təsir aşılayır, iç dünyasında böyük məyusluq doğurur. Lakin heç də bütün insanlar bu hissin öz həyatına mane olmasına yol vermir, əksinə, ona verilən ömrü mənalı yaşamağa çalışır. Hər bir fərdin həyatı mənimsəmiş olduğu sosial ideyalarla, yaşadığı dövrün şəraiti ilə sıx bağlı olur. Məhz bunlara əsaslanan insan öz həyatını xeyir-şər, doğru-yalan, ədalət, yaxud da ədalətsizlik kimi mənəvi-əxlaqi anlayışlar üzərində qurur.

Görkəmli psixoloq V.Frankiyə görə, insan həyatını heykəltəraşın fəaliyyəti ilə müqayisə etmək olar. Belə ki, ona öz əsərini tamamlamaq üçün müəyyən vaxt verilir. Lakin həmin vaxtın sonu və işin nə vaxt qurtaracağı haqqında məlumatı yoxdur. Buna görə də o, öz işini nə vaxt dayndıracağını bilmir və sadəcə özünə ayrılmış vaxtdan maksimum istifadə edir ki, əsəri yarımçıq qalmasın. Verilmiş vaxt iş başa çatanadək qurtarsa belə, görülən işin qiymətini aşağı salmır. Həyatın fraqmentar xarakteri onun mənasını azaltmır. Ömrün uzunmüddətli olmasına əsasən, heç vaxt onun nə dərəcədə mənalı olduğunu deyə bilmərik. Yəni, insan həyatının mənası, ölməzliyi onun özü tərəfindən qazanılır.

Din bu ölməzliyi müqəddəs ehkamlara əməl etməkdə, dini ayin və mərasimləri yerinə yetirməkdə, etiqad vasitəsilə Allaha, axirət dünyasına inam bəsləməkdə görür.

İnsan həyatı fiziki cəhətdən keçici olmasına baxmayaraq, mənəvi baxımdan (qoyub getdiyi mənəvi irs, yaradıcılıq və xeyirxah əməllərlə) ölməzlik qazana bilir. Təsadüfi deyildir ki, görkəmli elm və mədəniyyət xadimləri, gözəl sənətkarlar, xalqımızın vətənpərvər oğulları cismən ölsələr də, mənən əbədiyyətə qovuşur, əsrlər boyu insanların yaddaşlarında yaşayırlar. Deməli, insanın ölməzliyi onun zəkasının qüdrətində və humanizmində təcəssüm edir. Nizami deyirdi:

Nə şöhrət, nə yuxu, nə də ki, yemək,<br>Həyatın mənası olmasın gərək.<br>Çalış öz xalqının işinə yara,<br>Dünya əməlinlə geysin zər, xara.

Biososial varlıq olan insan öz həyatının mənası haqqında düşünərkən həyat və ölüm məsələlərinə də münasibətini formalaşdırır. Onlara cavab verərkən həyatın mənasız olması barədə təsəvvürlərə yol verilməməlidir. Digər canlılardan fərqli olaraq insan yeganə varlıqdır ki, həyatı boyu özündən narazı olur, müəyyən narahatlıq keçirir, məqsədinə çatmağa çalışır. Bu onun inkişafında stimul rolunu oynayır. O, öz qabiliyyətlərini hərtərəfli inkişaf etdirməyə, cəmiyyətin tərəqqisinə, ümumi işin xeyrinə töhfəsini verməyə səy göstərir. Onu buna sövq edən, cəmiyyətdə yaşamasıdır.

Müasir dövrdə elmin, xüsusən də təbabətin inkişafı insan ömrünün uzadılması üçün real imkanlar açır. Bəşəriyyət hazırda uzunömürlülüyü həyata keçirməyin astanasındadır. İnsan həyatına bu yeni baxış hər şeydən əvvəl yüksək əxlaqi prinsiplərə, humanist ideyalara və dəyərlərə arxalanmalıdır. Digər tərəfdən, ölüm probleminin sosial-etik və əxlaqi səpkisi getdikcə daha çox diqqəti cəlb edir. Hazırda yaşamaq hüququ ilə yanaşı, ölmək hüququ da düşündürən mövzudur. Bununla əlaqədar iki məsələ mübahisə doğurur: Birinci, insanın öz həyatına qəsd etməsidir. Bəzən elə hallar olur ki, insan yaşamaq, fəaliyyət göstərmək istəmir və son əlacı intiharda görür. Bu, çox zaman iradə zəifliyi, problemdən qurtulmanın yolu kimi qiymətləndirilir. Səmavi dinlərdə də bu pislənilir və böyük günahlardan sayılır. İkinci məsələ isə ölümcül xəstəlik dövründə uzun müddət əziyyət çəkən insanın həyatına müdaxilə edərək ölümünü sürətləndirməklə (evtanaziya - ağrısız, sakit ölmək) bağlıdır. Hər iki halda Allah tərəfindən bəxş edilən cana qəsd edilməklə günaha batılır. Beləliklə, insan həyatının mənası qarşısına çıxdığı çətinlikləri dəf edərək yaşayıb fəaliyyət göstərməsindədir. Həyat ondan qorxmaq üçün çox qısadır. Epikür deyirdi: “Ölümdən qorxmaq lazım deyil. Çünki nə qədər ki, biz yaşayırıq, ölüm yoxdur, o gələndə də biz olmayacağıq”.

## ƏLİNİZDƏ OLANLARI PAYLAŞIN

Qoca qatara yenicə minmişdi ki, ayaqqabısının bir tayı ayağından çıxıb, relsin üzərinə düşdü. Onu götürmək mümkün deyildi. Çünki qatar artıq hərəkət etmişdi.

Yanındakılar qocanın nə edəcəyini görmək üçün maraqla ona baxırdılar.

O, isə sakit bir şəkildə ayaqqabısının o biri tayını da çıxarıb, əvvəlki tayına yaxın bir yerə tulladı.

Yanındakılardan biri təəccüblə soruşdu:

- Niyə belə etdiniz?

Gülümsəyən qocanın cavabı isə sadə, lakin mənalı idi:

- Dəmir yolunun üzərindəki ayaqqabının tayını bir kasıb taparsa, o biri tayını da götürüb rahat geyinsin deyə.

## QƏZƏB VƏ PAXILLIQ

Bir gün qəddar və günahkar bir nəfər vəfat edir. Cəhənnəmin qapısında onu mələk qarşılayır və günahkara deyir: “Cəhənnəmə getmək istəmirsənsə, indi həyatın boyu etdiyin cəmi bir yaxşılığı yadına salıb, mənə desən, kifayət edər ki, bağışlanıb, Cənnətə düşəsən”. Kişi həyəcanla fikirləşir, bütün qohumlarını, dostlarını, ətrafındakı insanları xatırlayır, onlara nə vaxtsa yaxşılıq etdiyini yadına sala bilmir. Vaxt bitir, ancaq o, xilas üçün bir səbəb tapa bilmir. Kişini Cəhənnəmin qapısından içəri atmaq istəyirlər ki, birdən qışqırır: “Dayanın, xatırladım. Bir dəfə meşədə gedirdim, yolumun üstündə tor qurmuş hörümçək gördüm, oradan ehtiyatla keçdim ki, yuvası pozulmasın”.

Mələk gülümsəyir. Bu vaxt göydən bir hörümçək gəlir, öz torundan həmin adama uzadır. Kişi ipdən yapışıb, Cəhənnəmdən yuxarı - Cənnətə qalxmağa başlayır. Bu vaxt aşağıda olan digər günahkarlar da torun aşağısından yapışıb, xilas olmaq üçün imdad istəyirlər. Bir neçəsi tordan tutub qalxır. Kişi qorxuya düşür: “Birdən adamlar ağırlıq edər, ip qırılar”.

Özünü xilas etmək üçün o, ayağı ilə ipdən yapışan insanları aşağı itələməyə başlayır. Bu vaxt ip qırılır və kişi Cəhənnəmə yuvarlanır. Son anda onun qulağına Mələyin səsi gəlir: “Təəssüf. Sənin qorxun və narahatlığın qəzəbə və paxıllığa çevrildi, sən yenə də pis əməlindən qalmadın. Son anda heç olmasa bir-iki insana yaxşılıq etmək şansını da əldən qaçırdın. Bu hərəkətinlə bütün ömrün boyu etdiyin o bircə yaxşılığı da itirdin”.

# AZƏRBAYCANDA MƏHƏRRƏMLİK

Müsəlman təqviminin birinci ayı olan Məhərrəm Azərbaycanda da matəm ayı kimi qeyd edilir. Bu ayın ilk 10 günü və bundan sonra 40 gün ərzində şiələr İmam Hüseynin (ə) qətli münasibəti ilə təşkil edilən matəm mərasimlərində mərsiyə oxuyur, ehsan verirlər. Məhərrəmin 10-cu günü matəmin xüsusi mərasimi olan "Aşura" qeyd edilir. Bu mərasim xalq arasında müxtəlif adlarla - "Məhərrəmlik", "Qətl günü", "Şaxsey-Vaxsey" ("Şah Hüseyn, Ya Hüseyn"nin təhrif olmuş forması) kimi tanınır.

Tarixi mənbələrə görə, Azərbaycanda Məhərrəmlik mərasiminin kökləri erkən orta əsrlərə gedib çıxır. Müsəlman aləminin tərkib hissəsi olan Azərbaycanda orta əsrlərdə İmam Hüseynin (ə) həlak olması faciəsinə böyük ictimai-siyasi əhəmiyyət, əsasən şiə məshəbi çərçivəsində nəzəri cəlb etmişdir. Səfəvi sülaləsinin banisi Şeyx Səfiəddin (1252-1334) Ərdəbil şiələri arasında isnə-əşəri (on iki imama inananlar) ehkamını siyasi dayaq üçün təbliğ edərkən, özünü yeddinci imam Museyi Kazımın (ə) nəslindən elan etmiş və "İmam Hüseyn müsibəti" əhvalatını öz təbliğatının əsas mövzusuna çevirib, ondan siyasi məqsədlər üçün geniş istifadə etmişdir. Onun nəslindən olan Ərdəbil şeyxləri- Şeyx Cüneyd, Şeyx Heydər, Şeyx Sultan Əli, Şah İsmayıl və sonrakı səfəvi hökmdarları bu istiqaməti davam etdirmişlər.

Şiəlik Azərbaycanda XVI əsrin əvvəllərindən başlayaraq hökmranlıq etmiş Səfəvilərin rəsmi dövlət məzhəbi olduğundan, Məhərrəmlik mərasimindən istifadə edilməsi Səfəvilər sülaləsinin siyasi platformasında zəruri tədbirə çevrilmişdi. Belə ki, bu mərasim bəzi hallarda düşmən dövlətlərlə çəkişmə və müharibə apararkən onların əlində kütləni müharibəyə təhrik etmək, döyüş əzmini qaldırmaq və güclü dini-siyasi səfərbəredici vasitə rolunu oynamışdır.

Elə bu dövrdən Azərbaycan ərazisində Məhərrəmlik təziyədarlığı rəsmiləşdirilmiş, Kərbəla hadisəsi haqqında növhələr, mərsiyələr yazılmışdır. Dindarları kədərləndirməyi, ağlatmağı təlqin edən və matəm ab-havası yaradan belə yazılar xalq arasında geniş yayılmağa başlamışdır.

XVI əsr Səfəvilər dövrünün şiə ilahiyyatçıları Vazeh Hüseyn Kəşfinin "Şəhidlər bağçası", "Xoşbəxtlər bağçası", müctəhid Fazil Dərbəndinin "Şəhidlərin sirləri" adlı kitablarında və bu dövrdə tərtib olunmuş başqa yazılarda Kərbəla hadisəsi tarixiliklə çox ədəbi üslubda təsvir edilmişdir.

Bununla yanaşı, dövrün dini-fanatik əhval-ruhiyyəsindən çıxış edən və hakim dairələrin mənafeyini əks etdirən bəzi ilahiyyatçılar Məhərrəmlikdə dindarların özlərini döyməsini, zəncir vurmasını, baş yarmasını qan tökməsini, şəbih oyunu çıxarmasını İmam Hüseynin (ə) xatirəsinə hörmət əlaməti, hətta dini etiqadın şərtləri kimi qələmə verməyə başlamışlar. Onlar xalq arasında təbliğat aparaaraq, Kərbəla şəhidlərinə belə təziyə saxlayanların Cənnəti qazanacaqlarını vəd etmişlər.

Azərbaycanda Çar Rusiyasının hakimiyyəti illərində də Məhərrəmlik mərasimləri kütləvi qeyd edilmişdir. Lakin bu istiqamətdə müəyyən təşkilati fərqliliklər nəzərə çarpır. Çünki XIX əsrin əvvəllərində Zaqafqaziya ərazisinin Rusiya imperiyasına qatılması ilə əlaqədar regionda İslam təsisatlarının strukturunda əhəmiyyətli dəyişikliklər olmuşdur. 1823-cü ildə Şeyxülislam vəzifəsi təsis edilmiş və artıq Məhərrəmlik mərasimləri bu strukturun nəzarəti altında keçirilməyə başlamışdır. Bununla yanaşı, Bakıda və digər böyük şəhərlərdə yerli bəy və xanlar Məhərrəmliyin keçirilməsinə himayədarlıq göstərir, çoxlu rövzəxan, vaiz, mərsiyəxan saxlayıb, təkyələr təşkil edir, təziyədarlara qənd, çay, qara və ağ çit parça paylayır, əhali arasında matəm əhval-ruhiyyəsinə dəstək olurdular.

XIX əsrin sonu, XX əsrin əvvəllərində küçələrə çıxıb təziyə dəstələri düzəltmək, dini yürüşlər keçirtmək, zəncir vurmaq, baş yarmaq və şəbih oyunu çıxartmaq artıq kütləviləşməyə başlamışdır.

Azərbaycan ziyalıları içərisində Məhərrəmlik mərasiminin belə keçirilməsinə münasibət birmənalı deyildi. Onlar Məhərrəmliyin mahiyyətinin xalqa intellektual səviyyədə çatdırılmasının tərəfdarı olub, dini fanatizmə, mövhumat və cəhalətə xidmət edən ünsürləri ciddi tənqid atəşinə tuturdular. Cəmiyyətin ziyalı təbəqəsi və açıqfikirli din xadimləri İmam Hüseyn (ə) təziyəsini gəlir mənbəyinə çevirib, din pərdəsi altında mövhumatı yaymağa çalışanları ifşa edirdilər. Onlar dindarları loyal olmağa çağırır, cahil hərəkətlərdən əl çəkərək, İmam Hüseyn (ə) təziyəsini ədəb-ərkan çərçivəsində, hörmətlə keçirməyi məsləhət görürdülər.

Azərbaycanda Sovet hakimiyyətinin qurulmasından sonra dinə və dini təsisatlara münasibət dəyişdi. Hakim rejimin apardığı ateist təbliğat, partiya və ictimai təşkilatların fəaliyyəti, habelə kobud inzibatçılığın və təzyiqlərin nəticəsində insanların əksəriyyətinin dindən uzaqlaşdırılmasına səy göstərilirdi. Bu proses bolşevik çevrilişinin ilk günlərindən başlamış, iyirminci illərdə genişlənmiş, otuzuncu illərdə daha da təşəkkül tapmışdır. Bu illərdə məscid və kilsələr əsassız olaraq bağlanmış, bir çox dini bina dağıdılmış, ruhanilər və dindarlar təqiblərə məruz qalmışlar. Bunun nəticəsində əhali öz dini hisslərini gizlətməyə məcbur olmuşdur. Bütün bunlara baxmayaraq, dindarlar dini mərasimlər zamanı gizli şəkildə evlərdə toplaşaraq, Məhərrəmliyi qeyd etmiş, Kərbəla hadisəsinin təziyədarlığını saxlamışlar.

Sovet hakimiyyətinin sonrakı mərhələlərində dinə və dindarlara, nisbətən yumşaq münasibət bəslənilmişdir. Bu, əsasən, onunla izah olunur ki, elmi-ateizm təbliğatının güclənməsi, dini ayinlər haqqında qanunvericiliyin möhkəmlənməsi, din və dindarların ictimai qınaq obyektinə çevrilməsi və s. amillər güclənmiş, nəticədə Məhərrəmlik mərasimləri əvvəlki kütləviliyini itirmişdir. Lakin bu mərhələdə bir sıra tendensiyalar özünü göstərmişdir. İnzibati təzyiqlər və anti-dini təbliğat mexanizminin təsirləri altında qalan əhalinin bir hissəsi dini baxışlara laqeydlik göstərərək, dini matəmlərdə iştirak etməyə məhəl qoymasa da, digər tərəfdən Azərbaycanın bəzi yerlərində Məhərrəmlik mərasimi zamanı dindarlar zəncir vurmuş, baş yarmış, dini yürüşlər keçirmişlər.

Azərbaycan müstəqillik əldə etdikdən sonra dini plüralizmə qədəm qoyması, din sahəsində məhrumiyyətlərin aradan qaldırılması və bu kimi amillər Məhərrəmlik mərasiminin keçirilməsində intensivliyə rəvac vermişdir.

Hazırda Azərbaycanda fəaliyyət göstərən şiə məscidlərində Məhərrəmlik mərasimi əksər dindarın iştirakı ilə keçirilsə də, bəzi ayinlər - baş yarmaq, bədənə müxtəlif fiziki işgəncələr vermək halları tədricən aradan qalxmaqdadır.

Digər müsəlman ölkələrindən fərqli olaraq, Azərbaycanda Məhərrəmlik zamanı sünni icmanın şiələrlə yaxınlaşmasına, hətta matəm mərasimlərində iştirakı hallarına tez-tez rast gəlmək olar. Hələ XX əsrin əvvəllərində gerçəkləşən bu yaxınlıq, çox güman ki, uzun sürən rus müstəmləkəçiliyinə və Sovet hakimiyyətinə qarşı müqavimət hərəkatının təzahürü idi. Lakin qeyri-ənənəvi islam təriqətlərinin bu məsələdə heç bir payı yoxdur. Onlar bu istiqamətdə radikal mövqe nümayiş etdirirlər.

Azərbaycanda hər il (COVID-19 pandemiyası səbəbindən ötən il istisna oldu) Aşura mərasimi ilə bağlı bəzi xeyriyyə tədbirləri təşkil olunur ki, bu da müsəlman dünyasında nadir rast gəlinən hadisələrdəndir. 90-cı illərin ortalarından başlayaraq hemofiliya və talassemiyalı xəstələr üçün qanvermə aksiyaları keçirilir.

Son illərin müşahidələri onu da deməyə əsas verir ki, Məhərrəmlik mərasimləri ildən-ilə öz mahiyyətinə uyğun olaraq, daha sivil formada keçirilir. Əvvəlki illərlə müqayisədə, maarifləndirmə və təbliğat işinin həyata keçirilməsi nəticəsində, xarici ünsürlərin belə mərasimlərə təsir gücünün azalması tendensiyası da diqqəti cəlb edir.

## "NƏHCÜL-BƏLAĞƏ"dən

Aldadıcıdır dünya. Onda olan hər şey də insanı aldadır. Fanidir, onda olanlar da yox olub gedər. Dünya nemətlərində günahlardan çəkinməkdən başqa heç bir xeyir yoxdur. Dünyadan az bir şey əldə edən, ondan əmin olmaq üçün çox şeyə sahib olar. Çox şey əldə edənsə, özünü həlak edəcək çox şeyə sahib olar. Dünya insana azacıq fürsət verər, sonra keçib gedər: o fürsətə çatansa ancaq həsrət əldə edər. Ona güvənənləri dərdə salmışdır, ona inananları həlak vadisinə atmışdır, çox böyükləri həqir etmiş, çox "mən-mən" deyənləri alçaltmışdır.



Dünyanın dövləti əldən-ələ keçər, dünya yaşayışı durulmaz, bulandıqca bulanar. Şirin suyu acıdır, dilə-dodağa acı dad verər. Qidası ağudur, adamı öldürər. Yapışılacaq, tutulacaq hər şeyi çürükdür, qopar, tutanın əlində qalar. Dünyada diri olan, ölümü gözləməkdədir; sağ-salamat qalan, bu gün-sabah xəstəliyə çatmaqdadır. Malı-mülkü alınmış, talan edilmişdir; oradan ucalan məğlub olmuş, dünya malına sahib olan möhnətə düşmüşdür. Ona qonşu olan yağmalanmışdır.

Sizdən öncə uzun ömür sürənlərin, əsərləri qalanların, boş yerə baş tutmayan ümidlərə düşənlərin, köməkçiləri hazır duranların, orduları saya gəlməyənlərin yurdlarında deyilsinizmi? Onlar da dünyaya tapınmışdılar, özü də necə tapınmışdılar? Dinlərini buraxıb dünyanı almışdılar, həm də necə almışdılar? Ondan sonra da özlərinə, qonaq qalacaqları yerə aparmaq yol azuqəsi götürmədən, o ağır yolları-yalları keçəcək miniklərə minmədən köçüb-getdilər. Heç eşitdinizmi ki, dünya onlardan birini əvəz alıb buraxsın, yaxud onlara yardım edib dost olsun, dostcasına bir xoş kəlmə kəssin? Xeyr! Əksinə onları yaman günlərə saldı, ömür bağçalarını soldurdu, üzü üstə yerə atıb ayaqları altında əzdi, məhv etdi onları. Onlara ancaq ölümlə yardım etdi dünya. Axırda da, əbədi olaraq ondan ayrılıb getdikləri zaman ona uyanları, onu seçənləri tanımadığını, ona arxalananları saymadığını da gördünüz. Aclıqdan, ağılsızlıqdan başqa bir yol azuqəsimi verdi onlara? Darısqallıqdan başqa bir yerəmi endirdi onları? Yoxsa qaranlıqdan başqa bir işıqlı yerəmi qoydu onları? Yaxud peşmançılıqdan başqa bir şeymi verdi onlara? Yaxşı, bu dünyanı bunun üçünmü seçirsiniz? Buna görəmi könlünüzü ona verirsiniz, ona inanırsınız, onunla qol-boyun olursunuz?

# İSLAM MƏDƏNİYYƏTİ PAYTAXTI - 2018

## NAXÇIVAN

Naxçıvan şəhəri Azərbaycanın cənub-qərbində yerləşir və Naxçıvan Muxtar Respublikasının paytaxtıdır. Şəhərin ərazisi 191,57 $km^2$-dir. Naxçıvan dünyanın qədim yaşayış məskənlərindən biridir. Araşdırmalara görə, burada hələ Paleolit dövründə qədim insanların ilk yaşayış məskənləri olmuşdur. Xüsusilə Qazma mağarasından (Şərur rayonu) həmin dövrə aid zəngin arxeoloji tapıntılar aşkar edilmişdir. Bundan əlavə, Neolit, Eneolit, Erkən Tunc dövrünə aid I Kültəpə (Babək rayonu), Ovçulartəpə (Şərur rayonu), Damlama (Kəngərli rayonu), II Kültəpə (Babək rayonu), Maxta (Şərur rayonu), Gəmiqaya qayaüstü təsvirləri (Ordubad rayonu) kimi dünyaca məşhur arxeoloji abidələr mövcuddur.

"Naxçıvan" toponiminin mənası ilə bağlı bir çox fərziyə mövcuddur. Ən məşhuru isə əfsanəvi Nuh peyğəmbərin adı ilə bağlıdır, yəni "Nuh çıxan", "Nuhun yurdu" deməkdir. Tarixçi İosif Flaviy (e.ə I əsr) və yunan coğrafiyaçısı Klavdi Ptolemeyin «Coğrafiya» əsərində isə Naxçıvanın adı «Naksuana» kimi qeyd olunmuşdur.

Yaxın Şərqlə sıx ticari və mədəni əlaqələrin olması Naxçıvan ərazisində erkən şəhər mədəniyyəti və sinifli cəmiyyətinin meydana gəlməsinə səbəb olmuşdur. Bu, Naxçıvanın ən qədim şəhərlərdən olduğunu deməyə əsas verir. Şəhər e.ə. I minilliyin ilk yüzilliklərində Manna dövlətinin tərkibində olmuşdur. O, həmin dövrün daha iki dövlətinin - Assuriya və Urartunun da daim maraq dairəsində olumuşdur. Mannanın süqutundan sonra Naxçıvan əvvəlcə Midiya dövlətinin, sonra isə Əhəməni imperiyasının tərkibinə daxil olmuşdur. Sonralar Atropatena və Qafqaz Albaniyasına aid olan Naxçıvan daha sonra Sasanilərin tərkibinə qatılmışdır. IX əsrin sonlarından etibarən Naxçıvan əvvəl Sacilərin, sonra Salarilərin, daha sonra Rəvvadilərin tərkibinə daxil edilmişdir. Böyük Səlcuqlu dövləti Rəvvadilərin hakimiyyətinə son qoyduqdan sonra Naxçıvanı tərkibinə qatmışdır. Səlcuqlu imperiyasının süqutu ilə Eldənizlər dövlətinin tərkibinə qatılmış və paytaxt edilmişdir.

Naxçıvan 1221-ci ildə monqollar tərəfindən dağıdıldı, qarət və talan edildi. 1225-ci ildə Xarəzmşah Məhəmmədin oğlu Cəlaləddin Manqburnı buranı tutdu. XIII əsrin 30-cu illərində Naxçıvan Qızıl Ordanın tərkibinə daxil edildi. 1257-ci ildən isə Hülakilər dövlətinin tərkibinə qatıldı. Elxani hökmdarı Qazan xanın həyata keçirdiyi iqtisadi və siyasi islahatlar, Azərbaycanın başqa şəhərləri kimi, Naxçıvanın da yenidən bərpa olunub dirçəlməsinə imkan yaratdı.

Naxçıvan XIV əsrin 50-ci illərindən çobani, cuci, cəlairi və müzəffərilərin hakimiyyəti altında olmuşdur. 1386-cı ildə Naxçıvan Qızıl Orda hökmdarı Toxtamış tərəfindən tutulmuş və dağıntıya məruz qalmışdı; 1387-ci ildə Naxçıvanı Əmir Teymurun qoşunları ələ keçirdilər. Əlincəqalada Teymur qoşunlarına 14 il (1387–1401) inadlı müqavimət göstərilmişdir.

Naxçıvanda hürufilik təriqəti geniş intişar tapmışdı. Həmin təriqətin banisi Fəzlullah Nəimi 1394-cü ildə Miranşah tərəfindən Naxçıvanda edam olunmuşdur. Şəhər 1412-ci ildən Azərbaycan-türk mənşəli Qaraqoyunlu, 1468-ci ildən isə Ağqoyunlu dövlətlərinin tərkibində olmuşdur. XVI əsrdə Naxçıvan Azərbaycan Səfəvi dövlətinin aparıcı şəhərlərindən biri idi. XVI-XVII əsrlərdə Osmanlı–Səfəvi müharibələri (1514, 1553, 1554, 1579, 1585, 1590, 1605, 1635 ) zamanı Naxçıvan dəfələrlə əldən-ələ keçərək dağıdılmış, qarət edilmişdir. 1603-cü ildə I Şah Abbas Naxçıvanı hərbi düşərgəyə çevirmiş, onun idarəsi Maqsud Sultan Kəngərliyə həvalə olunmuşdur. 1605-ci ildə Naxçıvan ərazisi Osmanlı imperiyasına qatılmışdır.

Şəhər XVIII əsrin əvvəllərində şəhər Nadir şahın qoşunları tərəfindən tutulmuşdur. Nadir şah öldürüldükdən (1747) sonra Kəngərli tayfa başçısı Heydərqulu xan özünü xan elan etdi. Naxçıvan şəhəri xanlığın paytaxtı oldu. 1826–28-ci illər Rusiya–İran müharibəsi zamanı Naxçıvan rus qoşunları tərəfindən işğal olunmuş (1827-ci il, 27 iyun), Türkmənçay müqaviləsinə (1828) əsasən, Rusiyaya ilhaq edilmişdir. İşğaldan sonra Naxçıvan vilayətinin (1828–40), sonra isə Naxçıvan qəzasının mərkəzi olmuşdur.

Ermənilərin Naxçıvana qarşı ərazi iddialarının 1917-ci ilin sonlarından xüsusilə güclənməsi 1918-ci ilin əvvəllərində real təhlükəyə çevrildi, nizami daşnak silahlı dəstələri Naxçıvanın bir çox kəndini dağıdaraq, dinc əhaliyə divan tutdu. 1918-ci il mayın 26-28-də Gürcüstan, Azərbaycan və Ermənistan öz müstəqilliklərini elan etdikdən sonra Ermənistanın daşnak hökuməti Naxçıvanı özünə ilhaq etmək siyasəti yeritməyə, Naxçıvanda dinc azərbaycanlı əhaliyə divan tutmağa başladı. Əhalinin inadlı müqaviməti və türk əsgərlərinin bölgəyə daxil olması onlara bu məkrli niyyətlərini həyata keçirməyə imkan vermədi. 1918-ci ildə Mudros barışığına əsasən, türk qoşunları bölgədən çıxarıldıqdan sonra, noyabrda erməni-daşnak quldurlarından qorunmaq məqsədilə Araz-Türk Respublikası yaradıldı. Naxçıvan şəhəri onun mərkəzi elan olundu. 1919-cu ilin əvvəllərində Naxçıvanı tutan ingilislər Araz-Türk Respublikasını tanımaqdan imtina etdilər. Daşnaklar iyulda ingilislərin yardımı ilə Naxçıvanı tutsalar da, ingilislərin Naxçıvanı tərk etməsilə Naxçıvan Milli Komitəsinin hərbi hissələri erməni-daşnak qüvvələrini qovmağa nail oldu. Naxçıvanlılar bölgənin Azərbaycanın tərkibində qalmasının təmin edilməsində mühüm rol oynadılar.

1920-ci il aprelin 28-də Bakıda, iyulun 28-də isə Naxçıvanda sovet hakimiyyətinin elan edilməsi və Azərbaycan SSR-in yaradılması, Zəngəzurun Ermənistana verilməsi ilə Naxçıvanın Azərbaycandan ayrı düşməsi Naxçıvanın muxtariyyəti məsələsini gündəliyə gətirdi. 1920-ci il noyabrın 29-da Ermənistanda sovet hakimiyyəti elan edildikdən sonra Ermənistan SSR hökuməti də Naxçıvanı ilhaq etmək üçün yeni cəhdlər göstərdi. Naxçıvanın Azərbaycanın tərkibində muxtariyyət statusu almasında Türkiyənin böyük rolu oldu. 1921-ci il 16 martda bağlanmış Moskva və 1921-ci il 13 oktyabrda bağlanmış Qars müqavilələri Naxçıvanın taleyinin həll edilməsində böyük əhəmiyyətə malik oldu. 1924-cü il fevralın 9-da Azərbaycan SSR-in tərkibində Naxçıvan Muxtar Diyarı Naxçıvan Muxtar Respublikasına çevrildi. Naxçıvan Muxtar Respublikası yaradıldıqda onun sahəsi Naxçıvanın tarixi ərazisinin 5988 $km^2$-ni əhatə edirdi. 1929-1930-cu illərdə və sonra muxtar respublikanın ərazisinin bir hissəsi Kreml rejimi tərəfindən ermənilərə verildi. Nəticədə Naxçıvan Muxtar Respublikasının ərazisi 5365 $km^2$-ə qədər azaldıldı.



Yeni dövrdə Naxçıvanın Azərbaycanın tərkib hissəsi kimi inkişafı və təhlükəsizliyi Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə sessiyasında xalqın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsini öz üzərinə götürdü. Naxçıvanı çətin dönəmdən çıxaran Ümummilli Lider 1993-cü ilin yayında Azərbaycanı böyük təhlükələrdən xilas etmək üçün xalqın iradəsi ilə hakimiyyətə gəldi.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası ilə Naxçıvan Muxtar Respublikasına Azərbaycanın tərkibində muxtar dövlət statusu verilmişdir. Yeni Konstitusiya əsasında Naxçıvan Muxtar Respublikasının yeni Konstitusiyası hazırlanmış, 1998-ci il aprelin 28-də Muxtar Respublikanın Ali Məclisində qəbul edilərək, həmin il dekabrın 29-da Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiqlənmişdir.

Füsünkar təbiəti, tarixi memarlıq abidələri ilə Naxçıvan dünyanın məşhur şəhərlər siyahısındadır. Naxçıvan Muxtar Respublikasında 1162 tarixi-mədəniyyət abidəsi mövcuddur. Bunlardan 58 abidə dünya əhəmiyyətli, 455 abidə ölkə, 649-u isə yerli əhəmiyyətlidir. Bu siyahıya 663-arxeoloji abidə, 285-memarlıq abidəsi, 31-monumental sənət abidəsi, 36-tarixi abidə, 140-ziyarətgah, 7-təbiət abidəsi daxildir. Onların ən məşhurları – e.ə. IV-I minilliklərə aid qayaüstü rəsmlər–piktoqramlardan ibarət Gəmiqaya rəsmləri abidəsi, müsəlman dünyasında olduqca məşhur olan, Qurani-Kərimdə "əl-Kəhf" surəsinin 9-27 ayələrində bəhs edilən «Əshabi-Kəhf ziyarətgahı» dini-mədəni abidə kompleksi, tarixi olduqca qədimlərə dayanan, III Sasani hökmdarı Yəzdəgird tərəfindən inşa olunduğu güman edilən "Naxçıvanqala" tarix-memarlıq muzey kompleksi, Culfa rayonunun Qazançı kəndindən şimalında, Əlincəçayın hər iki sahilində e. ə. III-I minilliyin əvvəllərinə aid tarixi-arxeoloji abidə olan Qazançı qalası, III əsrə aid olan, Əmir Teymurun qoşunlarının 14 il ala bilmədiyi Əlincə dağının zirvəsində salınmış Əlincəqala, Culfa rayonunun Xanəgah kəndində, Əlincəçayın sahilində orta əsrlərə aid memarlıq kompleksi olan Əlincəçay xanəgahı, Naxçıvan şəhərinin cənub tərəfində Köhnəqala adlanan ərazidə VIII-XII əsrlərə aid memarlıq abidəsi olan Nuh türbəsi, Kəngərli rayonunun Qarabağlar kəndində orta əsrlərə aid tarixi-memarlıq abidəsi Qarabağlar türbəsi, Naxçıvanın simvoluna çevrilən, Azərbaycan milli memarlığının möhtəşəm nümunəsi, Şərq memarlığı incilərindən biri, 1186-cı ildə Naxçıvan şəhərinin qərb hissəsində, Əcəmi Əbu Bəkr oğlu Naxçıvaninin memarlığı ilə Azərbaycan Atabəylər dövlətinin banisi Şəmsəddin Eldəniz tərəfində yoldaşı Möminə xatının qəbri üzərində inşa edilmiş Möminə Xatın türbəsi, Naxçıvan şəhərində yerləşən, XVIII əsrə aid edilən, ümumi sahəsi 1000 $m^2$ olan Naxçıvan Came məscidi, Culfa rayonunun Gülüstan kəndi yaxınlığında orta əsrlərə aid memarlıq abidəsi olan Möminə Xatın türbəsinin təsiri ilə XIII əsrin əvvəllərində tikilmiş Gülüstan türbəsi, tikintisi XIII əsrə aid edilən, Culfa rayonunun Kırna kəndində yerləşən Kırna türbəsi, Ordubad şəhərinin mərkəzində XIV əsrdə inşa edilmiş Ordubad buzxanası, Naxçıvan şəhərində, İmamzadə kompleksinin yaxınlığında, Azərbaycanın ən böyük buzxanalardan biri olan, XII-XIV əsr memarlıq kompleksi Naxçıvan buzxanası, Naxçıvan şəhərinin cənub-şərq hissəsində İmamzadə kompleksi, Naxçıvan şəhərində, Heydər Əliyev prospekti ilə Təbriz küçəsinin kəsişməsində Dədə Qorqud meydanında tarixi-memarlıq abidəsi "İsmayılxan" (Şərq) hamamı, Ordubad rayonunun Aza kəndində, Gilançayın üzərində XVII əsrə aid memarlıq abidəsi Aza körpüsü, Naxçıvan şəhərində XVIII əsrə aid tarixi-memarlıq abidəsi, Şərq memarlıq üslubunda Naxçıvan xanı Ehsan xanın atası Kəlbəli xan Kəngərli tərəfindən tikilmiş, XX əsrin əvvəllərinə qədər Naxçıvan xanlarının yaşayış evi olmuş Xan Sarayı (Xan Sarayı 1998-ci ilin aprelindən Naxçıvan Xalça Muzeyi kimi fəaliyyət göstərir), Ümummilli Lider Heydər Əliyevin şəxsi təşəbbüsü və himayəsi ilə Azərbaycan şairi və dramaturqu Hüseyn Cavidin qəbri üzərində ucaldılmış möhtəşəm memarlıq-xatirə kompleksi - Hüseyn Cavidin məqbərəsidir.

Şərqin ən gözəl tarixi şəhərlərindən olan Naxçıvan günümüzdə də öz originallığını saxlaya bilmişdir. Şəhər Azərbaycanın eləcə də şərqin mədəni irsini özündə qoruya bilmişdir.

Naxçıvan 2018-ci ildə İslam Mədəniyyətinin Paytaxtı seçilmişdir.

**Tural Vəlizadə**



# VƏTƏN MÜHARİBƏSİ ŞƏHİDLƏRİ

*2020-ci il sentyabrın 27-si səhər saatlarında Ermənistanın ətəşkəs rejimini növbəti dəfə pozmasına cavab olaraq Müzəffər Azərbaycan Ordusunun əks-hücuma keçməsi ilə başlayan "Dəmir Yumruq" əməliyyatı - 44 günlük Vətən müharibəsi illərdir həsrətində olduğumuz Qarabağın işğaldan azad olunması ilə nəticələndi. İllərin keşməkeşli sınaqlarından üzüağ çıxmış, bir əsrdə iki dəfə müstəqilliyini elan etməklə heç bir buxovu qəbul etmədiyini göstərmiş Azərbaycan xalqı bu müharibədə də mərdliyi və qəhrəmanlığı ilə bütün dünyanın diqqətini bir daha öz üzərinə çəkdi. Əminliklə deyə bilərəm ki, bu məğrurluğun əsasında dayanan ən mühüm amil xalqımızın ədalətsizliklə qətiyyən razılaşmaması, özünün bütün sülhpərvər yönləri ilə yanaşı, hərbi qüdrətini məhz məqamında dəmir yumruğa çevrilməklə göstərməsi, dolayısı ilə "mövzu Vətəndirsə, qalan hər şey təfərrüatdır" deyə bilməsi durur.*

*İşğalda olan torpaqlarımızı azad etmək üçün böyük həsrətlə gözləyən xalqımızın növbəti erməni təcavüzünə qarşı göstərdiyi əsrarəngiz reaksiya – Vətənin müdafiəsi və ərazi bütövlüyünün bərpası naminə bir yumruq kimi birləşməsi həm də uzun illər ona edilən haqsızlığa qarşı döyüş ruhunun təcəssümü idi. Bu gün hər bir azərbaycanlı qələbəni yaşamaqla bərabər, bu yolda canını fəda edən Vətən övladlarının əziz xatirəsini də unutmur, daim onları yad edir və əbədiyyən qəlbində yaşadacaq. Çünki Vətən uğrunda canından keçən şəhidlərimiz, sağlamlığını itirən qazilərimiz 44 gün ərzində gələcək nəsillərimiz üçün örnək olacaq şanlı tarix yazdılar. Ümumiyyətlə, torpağı Vətənə çevirən, onu müqəddəsləşdirən, özlərini bu yolda fəda edənlər - şəhidlərdir. Bu səbəbdən onların hər birini tanımaq və tanıtdırmaq cəmiyyət olaraq hər birimizin borcudur. Bu mənəvi borcdan irəli gələrək, "Cəmiyyət və Din" qəzeti 2021-ci ildəki ilk sayından etibarən şanlı zəfər tariximizi yazan şəhidlərimiz haqqında böyük fəxarət hissi ilə öz oxucularına məlumat verir, onların şərəfli ömür yollarına işıq tutmağa çalışır.*

## Abbasov Asim Rasim oğlu

Şəhid Abbasov Asim Rasim oğlu 1987-ci il mayın 26-da İmişli rayonunun Hacırüstəmli kəndində dünyaya gəlib. Asim 1993-cü ildə Mehman Süleymanov adına Hacırüstəmli kənd tam orta məktəbinin 1-ci sinfinə daxil olub. 2004-cü ildə



həmin məktəbin 11-ci sinfini bitirib. Əsl vətənpərvər Azərbaycan gənci kimi formalaşan Asim 2004-cü ildə İmişli rayon Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Müddətli hərbi xidmətini başa vurduqdan sonra sənədlərini "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı" kursuna verib. Kursu uğurla bitirərək Silahlı Qüvvələrin Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissəsində xidmətə başlayıb.

Hərbçi kimi hər zaman nizam-intizamı və öz peşəsinə bağlılığı ilə seçilən Asim təlimlərdə də üzərinə düşən işin öhdəsindən yüksək səviyyədə gəlməyi bacarıb.

Hələ 2016-cı ilin Aprel döyüşləri zamanı igidliyi ilə fərqlənən qəhrəmanımız Vətən müharibəsində qısa, ancaq şərəfli döyüş yolu keçir. "N" saylı hərbi hissənin müddətdən artıq hərbi qulluqçusu olan çavuş Abbasov Füzuli rayonunun Qaraxanbəyli kəndi istiqamətində düşmənin birinci eşelonunun yarılmasında xüsusi fədakarlığı ilə seçilib. Şəhidimizin döyüş yoldaşı Vüqar Səfərov deyir ki, Asimlə düşmənin bir neçə postunun ələ keçirilməsində iştirak ediblər. Onlar döyüşlərin ikinci günü düşmənin xüsusi təyinatlı hərbçiləri ilə rastlaşırlar. Asim 5 nəfər döyüş yoldaşı ilə birgə düşməni geri çəkilməyə məcbur edir. Döyüş yoldaşları: Elvin Soltanlı və Mehman Sadıqov qəhrəmanımız haqqında danışarkən "Qara Qartal" adlandırdıqları Asimi hər zaman özlərinə örnək aldıqlarını qeyd etdilər. O, 33 yaşı olmasına baxmayaraq, fiziki hazırlığına görə taborda hər kəsdən seçilib, ən yüksək nəticələr əldə edib. Şəhidimizlə çiyin-çiyinə döyüşlərdə iştirak edən qəhrəman igidlərimizin sözlərinə görə, o, hər zaman belə bir ifadə işlədərdi, "düşmənin gülləsi məni öldürə bilməz". Belə də oldu, döyüşlərdə yaralanmasına baxmayaraq, Asim zərrə qədər də geri çəkilmədi. Çarəsiz düşmən onun yerini tankla mərmisi ilə vurmağa məcbur oldu. Ağır yaralanan Asim onlarla düşməni məhv edərək, sentyabrın 28-də Füzuli rayonu ərazisində şəhidlik zirvəsinə ucaldı. Şəhid Asim Abbasov anadan olduğu doğma kəndində uğrunda canının fəda etdiyi Vətən torpağına tapşırılıb.

Şəhidimiz ailəli olub. Onun dörd yadigarı - 1 oğlu, 3 qızı qalıb. İnanırıq ki, onlar da atası kimi Vətənə layiq övlad olacaqlar. Çünki onların damarından Asim Abbasovun qanı axır.

Cəsurluğu və qəhrəmanlığı ilə adını tariximizə əbədi yazan çavuş Abbasov Asim Rasim oğlu ölümündən sonra iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda", "Cəsur döyüşçü", "İgidliyə görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

## Abbasov Bəşir Nizami oğlu

Şəhid Abbasov Bəşir Nizami oğlu 1998-ci il oktyabrın 22-də Quba şəhərində anadan olub. Bəşir 2005-ci ildə Hacıbaba Əliyev adına Quba şəhər 1 nömrəli tam orta məktəbin 1-ci sinfinə gedib. 2014-cü ildən isə təhsilini Nazim Əsədov adına Siyəzən şəhər 4 nömərli tam orta məktəbdə davam etdirib.



2016-cı ildə həmin məktəbin 11-ci sinfini bitirib. Bəşir 2016-cı ilin oktyabrında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) Quba şəhər şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Xidmətə Ağcabədi rayonunun-da yerləşən "N" saylı hərbi hissədə başlayan qəhrəmanımız daha sonra xidmətini Füzuli rayonununda davam etdirib. Hələ uşaq yaşlarından xislətinə bələd olduğu düşmənlə üzbəüz postlarda dayanan şəhidimiz onların törədə biləcəyi təxribatlara qarşı özünü hazırlayır, fiziki və hərbi hazırlığını inkişaf etdirir, təlimlərdə yüksək nəticələr göstərirdi. Müddətli hərbi xidmətini başa vurduqdan sonra sənədlərini "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı" kursuna verib. Kursu uğurla bitirərək Silahlı Qüvvələrin Qusar rayonunda yerləşən "N" saylı hərbi hissəsində xidmətə başlayıb.

2020-ci ilin sentyabrın 27-də Ermənistanın növbəti təxribatından sonra ordumuz əks-hücum əməliyyatına başlayır. Bəşir də xidmət etdiyi hərbi hissənin tərkibində cəbhənin cənub istiqamətindən döyüşlərə qatılıb. Füzuli və Cəbrayıl rayonları ərazilərində gedən döyüşlərdə iştirak edən Bəşir həm də yaralı döyüş yoldaşlarına kömək edir, onları döyüş meydanından çıxarırdı. Oktyabrın 5-də sonuncu dəfə ailəsi ilə danışan qəhrəmanımız sanki şəhadətini hiss edibmiş kimi, anasından halallıq istəyib. Şəhəri gün saat 10:00 radələrində Füzuli rayonu ərazisində düşmənin mövqelərini ələ keçirmək üçün döyüşərkən onların yaxınlığına minaatan mərmisi düşüb. Qəhrəmanımız aldığı qəlpə yarasından şəhid olub. O, Quba Şəhidlər Xiyabanında dəfn edilib.

Şəhidimiz subay idi.

İgidliyi ilə adını Vətən tariximizin şanlı səhifəsinə yazan əsgər Abbasov Bəşir Nizami oğlu ölümündən sonra iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda" və "Füzulinin azad olunmasna görə" medalları ilə təltif edilib.

## Abbasov Elvin Şamil oğlu

Cəsur görkəmi, igidliyi və şücaəti ilə düşmənin qəniminə çevrilən qəhrəmanlarımızdan biri də şəhid Abbasov Elvin Şamil oğludur. O, 1992-ci il mayın 6-da Ağdərə rayonunun Umudlu kəndində anadan olub. Qəhrəmanımızın ailəsi 1992-ci ildə məcburi köçkün kimi Bərdə rayonuna pənah aparıb. Hacallı kəndində məskunlaşıblar. 1998-ci ildə Hacallı kənd tam orta məktəbin 1-ci sinfinə gedib, 2009-cu ildə həmin məktəbin 11-ci sinfini bitirib.



2010-cu ilin iyulunda Tərtər rayon Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılan qəhrəmanımız Daxili Qoşunların "N" saylı hərbi hissəsində xidmət edib. Döyüş və fiziki hazırlığı ilə seçilərək keçirilən təlimlərdə adını ön sıralara yazdırmağı bacaran Elvin 2012-ci ilin yanvarında hərbi qulluğunu uğurla başa vurub. Uşaqlıqdan hərbi sahəyə marağı olan Elvin 2012-ci ildə tərxis olunduqdan bir neçə ay sonra sənədlərini Daxili Qoşunların "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı" kursuna verib. Kursu uğurla bitirərək Daxili Qoşunların "N" saylı hərbi hissəsinin Xüsusi Təyinatlı Dəstəsində xidmətə başlayıb. Elvin hərbi xidmətə olan böyük həvəsi sayəsində hər zaman ona verilən əmr və göstərişlərdən irəli gələn vəzifələri şərəflə yerinə yetirib. Xidmətinin elə ilk günlərindən bacarığı, qorxmazlığı ilə komandirlərinin və hərbçi yoldaşlarının hörmətini qazanıb.

Vətən qarşısında müqəddəs borcunu şərəflə yerinə yetirən hər bir qeyrətli Azərbaycan vətəndaşı kimi, Elvinin də ən böyük arzusu anadan olduğu kənd də daxil olmaqla işğal altındakı torpaqlarımızın azadlığı və ölkəmizin ərazi bütövlüyünün bərpa olunması idi. Elə buna görə də, o, 2020-ci il sentyabrın 27-si səhər saatlarında Ermənistanın atəşkəs rejimini pozub Azərbaycana qarşı hücum etməsi və ordumuzun əks-hücuma keçməsi ilə başlayan Vətən müharibəsini sevinclə qarşılayır.

Müharibə başlayandan sonra Elvin öz bölükləri ilə əvvəlcə Bərdəyə gəlib daha sonra xidmət etdiyi bölmənin tərkibində Füzuliyə gedir. İlk olaraq Cəbrayıl uğrunda döyüşlərdə iştirak edib. Hadrutun azadlığı uğrunda gedən döyüşlərində xüsusi fəallıq göstərən qəhrəmanımızı döyüş yoldaşları "Boyka" adlandırırmış. Tuğu işğaldan azad etdikdən sonra Elvinin olduğu qrup pusquya düşsə də, şəhidimiz və döyüş yoldaşları erməniləri məhv edərək pusqudan çıxıblar. Elvin noyabrın 5-də Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə düşmən snayperindən açılan atəş nəticəsində şəhid olub. O, noyabrın 7-də Bərdə Şəhidlər Xiyabanında uğrunda canından keçdiyi Vətən torpağına tapşırılıb.

Elvin ailəli olub. Onun iki qız övladı var.

Döyüş əməliyyatları zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə baş çavuş Abbasov Elvin Şamil oğlu ölümündən sonra "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə"medalları ilə təltif edilib.

Allah bütün şəhidlərimizə rəhmət etsin!

Hazırladı: **Ramil Hikmət**

# NARKOMANİYAYA QARŞI MÜBARİZƏDƏ ƏN KƏSƏRLİ SİLAH

Uca Yaradanın insana bəxş etdiyi nemətlər saysız-hesabsızdır. Böyüklüyündən-kiçikliyindən asılı olmayaraq, hər bir nemət şirindir və Rəbbimizin bizə əmanətidir. Dinimizə görə, insana əmanət edilən beş mühüm dəyər din, can, ağıl, nəsil və maldır. İnsan bu dünyada xoşbəxt həyat sürüb, axirətdə də əbədi səadəti qazanmaq istəyirsə, bu beş əmanəti göz bəbəyi kimi hifz etməli, onlara təhlükə yarada biləcək hər şeydən özünü qorumalıdır. Həmin təhlükələrdən biri, bəlkə də birincisi narkotik vasitələrdən istifadə və narkomaniyadır.

Allah-Təala Qurani-Kərimin "əl-Maidə" surəsinin 90-91-ci ayələrində buyurur: "Ey iman gətirənlər! Şərab da (içki də), qumar da, bütlər də, fal oxları da Şeytan əməlindən olan murdar bir şeydir. Bunlardan çəkinin ki, bəlkə, nicat tapasınız! Şübhəsiz ki, Şeytan içki və qumarla aranıza ədavət və kin salmaqdan və namaz qılmaqdan ayırmaq istər. Artıq bu işə son qoyacaqsınızmı?"

Ayədə "şərab" mənasını ifadə edən "xamr" kəlməsi ərəb dilindən hərfi tərcümədə "bir şeyi örtən örtük" anlamını verir. Məfhum kimi isə "xamr" insanı məst və bihuş edən, beynini zəhərləyən, düşünmə qabiliyyətindən məhrum edən hansısa əşya deməkdir. Bu nöqteyi-nəzərdən yuxarıda qeyd olunmuş ayə yalnız şərab və spirtli içkiləri deyil, daha zərərli və məhvedici olduğu heç kəsdə şübhə doğurmayan narkotik vasitələri də qadağan edir. Həzrət Məhəmməd (s) hədislərindən birində belə buyurur: "Hər sərxoşedici xamrdır və hər sərxoşedici haramdır. Kim dünyada xamr qəbul edər və tövbə etmədən ona mübtəla olmuş halda ölərsə, axirət şərabından məhrum olar".

Quran ayələri və hədislər əsasında spirtli içki və narkotik vasitələrlə bağlı İslamın mövqeyini belə ümumiləşdirmək olar: 1) İstər qaz (toksikomaniya), istər maye (spirtli içkilər) və ya bərk halda (narkotik maddələr) olsun, insanı keyləşdirən və beynini dumanlandıran hər bir maddədən istifadə, onların istehsalı, alqı-satqısı qəti qadağandır; 2) Bu maddələrin istehsal, saxlanma və satışından əldə olunan qazanc haram sayılır.

Alkoqolizm və narkomaniyanın bəşəriyyətə vurduğu zərərlərin miqyası ölçüyəgəlməzdir. Bu qorxunc bəla təkcə ona mübtəla olan konkret fərdin faciəsi deyil, ümumilikdə bütün cəmiyyətin problemidir. Dünyada 250 milyona yaxın insan narkomaniyadan əziyyət çəkir və bu rəqəm günü-gündən artmaqdadır. Çox təəssüf ki, Azərbaycanda da "ağ ölüm"ün qurbanlarının sayı az deyildir. Ölkəmizdə bu sahədə aparılan maarifləndirmə işlərinə, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə aparılmasına baxmayaraq, hər il təqribən 1000 nəfər narkoman rəsmi qeydiyyata düşür və onların əksəriyyəti gənclərdir.

Təcrübə göstərir ki, narkotik vasitələrin uzun müddət aludəçisinə çevrilmiş şəxsin tibbi üsullarla tam müalicə ehtimalı xeyli azdır. Bunun üçün təxminən 2 il vaxt və külli miqdarda maliyyə vəsaiti tələb olunur. Ancaq bu halda da müalicə 10-15 faiz nəticə verir. Statistikaya görə, Avropada 20-25 faiz narkoman müalicə olunduqdan sonra normal həyata dönür və bir daha narkotik vasitədən istifadə etmir. 75-80 faiz isə reabilitasiya mərkəzindən çıxdıqdan sonra yenidən narkotikin əsirinə çevrilir. Mütəxəssislərin fikrincə, müalicənin effektivliyini azaldan başlıca amil narkoloji asılılığın ən çətin mərhələsi olan psixoloji asılılıqdır. Çünki narkotik insana, ilk növbədə, əqli və mənəvi cəhətdən təsir göstərir, iradə qüvvəsini sıradan çıxararaq, onu zəif, aciz məxluqa çevirir. Tarixə nəzər salsaq, bir çox ölkədə alkoqolizm və narkomaniyaya qarşı inzibati yollarla mübarizə üsullarının tətbiq edildiyini görə bilərik. Məsələn, XX əsrin əvvəllərində ABŞ-da spirtli içkilərə qarşı təbliğat kampaniyaları keçirilmiş, 65 milyon dollardan çox pul xərclənmişdir. Hətta 1920-ci ildə spirtli içkilərin istehsalı, satışı və istifadəsini qadağan edən "quru qanun" qəbul olunmuşdur. Lakin bütün bunlar heç bir nəticə verməmiş, əks təsir göstərərək vəziyyəti daha da gərginləşdirmişdi. Yeni qanunun qüvvəyə minməsi ilə ölkədə cinayətkarlıq, xüsusən də qaçaqmalçılıq və kustar içki istehsalında artım müşahidə olunmuşdu. Bu və digər faktlar sübut edir ki, qanun və qadağaların tətbiqiylə zərərli vərdişlərə qarşı mübarizədə tam uğur qazanmaq, demək olar ki, mümkünsüzdür.




Tibbin və inzibati mübarizə üsullarının aciz qaldığı bu məqamda çıxış yolunu din və mənəvi dəyərlərdə axtarmaq lazımdır. Xüsusilə, İslam dininin bu sahədə böyük təcrübəsi və potensialı dərindən öyrənilməlidir. İslam yarandığı dövrdən insan həyatına ziyan vuran bütün vasitələrə qarşı müharibə elan etmiş, sağlam insan cəmiyyətinin yaradılmasını başlıca məqsəd bilmişdir. Bu baxımdan dinimizin şəraba, sərxoşedici maddələrə qarşı mövqeyi xüsusilə təqdirəlayiqdir. Məlumdur ki, on dörd əsr bundan əvvəl İslamaqədərki ərəb cəmiyyətində şərab ən böyük sosial bəla sayılırdı. Şərab ərəblərin həyatına o dərəcədə sirayət etmişdi ki, ona az qala pərəstiş edir, şəninə şeirlər, nəğmələr qoşurdular. İçkinin zərərləri və haramlığı ilə bağlı Allah-Təalanın nazil etdiyi ayələr, eləcə də Həzrət Məhəmmədin (s) səyləri nəticəsində ərəblər iliklərinə qədər işləmiş bu bəladan qurtula bilmişlər. Bu məqamı İstanbul Universiteti Tibb Fakültəsinin Sanitariya-Gigiyena bölməsinin yaradıcısı amerikalı prof. Julius Hirş çox gözəl ifadə etmişdir: "Həzrət Məhəmməd (s) Quran vasitəsilə içkini qadağan etmiş və əsrlərlə böyük insan kütlələrini onun zərərlərindən qoruya bilmişdir. XX əsrdə inkişaf etmiş Amerikada hər cür təbliğata və texnoloji tərəqqiyə baxmayaraq, bu nəticə əldə olunmamışdır".

İslam nəinki narkotik vasitələrdən istifadəni qadağan edir, həm də narkomaniyaya aparan bütün yolların qarşısında sədd çəkir. Dinimiz insanı alkoqol, siqaret və narkotika istifadəçisinə çevirə biləcək səbəb və faktorlara qarşı işlək mexanizmlər irəli sürür. İnsanı bu səbəblərin başında gələn ruhi və mənəvi boşluqdan, daxili iztirablardan xilas edir. Mənəvi qida axtarışında olan ac ruhları doyuzduraraq, onlara həyat eşqi bəxş edir. Gəncləri həvəs və ehtiraslarının yol aça biləcəyi fəsadlardan qoruyur.

Dinimiz narkomaniyanın profilaktikasında da mühüm rol oynayır. İslam dünyagörüşü insanı narkoloji asılılığın istənilən mərhələsindən sağlam həyata qaytarmaq gücünə malikdir.

İnsan Uca Yaradanın buyuruqlarına əməl etməklə öz həyata baxışını, yaşam tərzini sağlam əsaslar üzərində qurmağa müvəffəq ola bilər. Lakin onu da qeyd etmək lazımdır ki, narkomaniya kimi sosial bəlalarla mübarizədə İslam dininin potensialından tam istifadə etməyə çətinlik törədən amillər mövcuddur. Dini radikalların törətdikləri terror aktlarının əks-təsiri kimi yaranan və dünya miqyasında təbliğ olunan islamofobiya bunlardan ən təhlükəlisidir. Bu baxımdan narkomaniyaya qarşı mübarizə ilə dini ekstremizm və radikallığa qarşı mübarizə arasında paralellər aparmaq vacibdir.

***"Cəmiyyət və Din"***

# "EHTİYAT ZABİT HAZIRLIĞI KURSU"NA QƏBUL BAŞLAYIR

Müdafiə Nazirliyinin hərbi hissələrində zabit vəzifələrdə həqiqi hərbi xidmət keçmək istəyən müddətli həqiqi hərbi xidmətini başa vurmuş, ali təhsilli, 28 yaşınadək olan vətəndaşlar avqustun 9-dan 30-dək müvafiq sənədlərlə birlikdə Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində (AO TTM) fəaliyyət göstərən qəbul komissiyasına müraciət edə bilərlər.



Kursa qəbul olunmaq üçün müraciət edən vətəndaşlar AO TTM-də fəaliyyət göstərən qəbul komissiyası tərəfindən hərbi xidmətə yararlılıq dərəcələrinin müəyyən edilməsi məqsədilə Müdafiə Nazirliyinin Hərbi Həkim Komissiyasına göndərilir. Komissiyanın qərarına əsasən hərbi xidmətə yararlı hesab edilmiş şəxslər qəbul imtahanlarına buraxılır.

Fiziki hazırlığı, ümumi bilik səviyyəsi, düşünmə qabiliyyəti, peşə maraqları, ünsiyyət qurmaq və qərar qəbuletmək bacarıqları, fərdi-psixoloji və digər keyfiyyətlərinin öyrənilməsi məqsədilə keçirilən imtahanları müvəffəqiyyətlə vermiş namizədlər müvafiq ixtisaslar üzrə kursa qəbul edilir.

Kursu müvəffəqiyyətlə başa vuran kursantlara "leytenant" hərbi rütbəsi verilərək həqiqi hərbi xidmətə qəbul olunmaları barədə bağlaşma bağlanır və onlar ixtisaslarına uyğun vəzifələrə təyin olunurlar.

Kursa qəbul olunmaq istəyən namizədlərin AO TTM-də fəaliyyət göstərən qəbul komissiyasına müraciət zamanı təqdim etməli olduqları sənədlərin siyahısı Müdafiə Nazirliyinin saytında yerləşdirilib.

Ünvan: Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi, 76, "Qızıl Şərq" hərbi şəhərciyi (Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzi). Telefon: (012) 538-85-62.

Namizədlər avqustun 9-dan 30-dək hər gün (bazar günü istisna olmaqla) saat 09:00-dan 17:00-dək müraciət edə bilərlər.

Məhkumluğu olan hərbi vəzifəlilərin "Ehtiyat zabit hazırlığı kursu"na qəbul üçün müraciət etməmələri xahiş olunur.

# İSRAİLDƏ AZƏRBAYCANIN TİCARƏT VƏ TURİZM NÜMAYƏNDƏLİKLƏRİ AÇILIB

İyulun 29-da İsrailin Tel-Əviv şəhərində Azərbaycan Respublikasının Ticarət və Turizm nümayəndəlikləri açılıb.

Bununla əlaqədar keçirilən tədbirdə Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında Birgə Komissiyanın həmsədrləri – Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov, İsrailin turizm naziri Yoel Razvozov, Azərbaycan nümayəndə heyəti, İsrail rəsmiləri, ziyalılar və biznes dairələrin nümayəndələri, İsrail-Azərbaycan Ticarət-Sənaye Palatasının üzvləri iştirak ediblər. İştirakçılar Azərbaycan Ticarət Nümayəndəliyinin ofisi ilə tanış olublar.



Tədbirdə çıxış edən iqtisadiyyat naziri Mikayıl Cabbarov dostluq və qarşılıqlı hörmət prinsipləri əsasında qurulan ikitərəfli əməkdaşlığın yüksək səviyyədə olduğunu bildirib. Nazir Azərbaycanın İsraildə Ticarət və Turizm nümayəndəliklərinin ikitərəfli ticarət-iqtisadi əlaqələrin inkişafında əhəmiyyətli olacağına əminliyini ifadə edib.

M.Cabbarov 44 günlük Vətən müharibəsi ərzində Azərbaycana göstərdiyi dəstəyə görə İsrail tərəfinə təşəkkürünü bildirib, İsrail şirkətlərinin işğaldan azad olunmuş ərazilərimizin bərpasına göstərdikləri marağı yüksək qiymətləndirib.

İqtisadiyyat naziri enerji, səhiyyə, rəqəmsallaşma, investisiyalar, innovasiya, İKT, kənd təsərrüfatı, su resurslarının idarə edilməsi, turizm kimi sahələrdə ikitərəfli əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialı vurğulayıb və İsrail iş adamlarını Azərbaycanda yaradılmış əlverişli biznes və investisiya mühitindən faydalanmağa dəvət edib.

Azərbaycanın Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev Ticarət və Turizm nümayəndəliklərinin iki ölkə arasında tərəfdaşlığın, o cümlədən turizm sahəsində əlaqələrin genişlənməsinə önəmli töhfə verəcəyini qeyd edib. Diqqətə çatdırılıb ki, Azərbaycanda tarixi yəhudi irsinin qorunması və Dövlət Turizm Agentliyi tərəfindən bu irsin turizm potensialının inkişafı üçün bir sıra işlər görülür. Belə ki, agentlik tərəfindən "Azərbaycanda yəhudi irsi" turizm marşrutu hazırlanıb, həmçinin İsrailin Azərbaycandakı səfirliyi ilə birlikdə ölkəmizin şimal hissəsində yerləşən Qırmızı qəsəbədə dağ yəhudilərinin sıx yaşadığı ərazidə turizm marşrutlarının inkişafı və təkmilləşdirilməsi istiqamətində addımlar atılır.

Hökumətlərarası Komissiyanın həmsədri, İsrailin turizm naziri Yoel Razvozov İsrail-Azərbaycan münasibətlərinin strateji xarakter daşıdığını, qarşılıqlı etimad və hörmətə əsaslandığını qeyd edib. Otuz il ərzində ölkələrimiz əməkdaşlıq sahəsində böyük nailiyyətlər əldə edib, bununla belə İsraildə Azərbaycanın Ticarət və Turizm nümayəndəliklərinin açılması əməkdaşlığımızda tarixi hadisədir. İkitərəfli münasibətlərin daha da möhkəmləndirilməsi istiqamətində bu mühüm qərarı qəbul etdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkürünü bildirən Yoel Razvozov iqtisadi əməkdaşlığın yeni hədəflərinin qarşıya qoyulduğunu və nümayəndəliklərin bu məqsədə xidmət etdiyini vurğulayıb. İsrailin turizm naziri qeyd edib ki, nümayəndəliklər yüksək texnologiya, energetika, su təchizatı, kənd təsərrüfatı, tibb, təhsil və qarşılıqlı investisiyalar kimi müxtəlif sahələrdə birgə biznes qurmaq istəyən İsrail iş adamları üçün yeni ünvan, əlverişli platforma olacaq.

# MƏRKƏZ: "AZƏRBAYCANIN QARABAĞDA YAŞAYAN ERMƏNİLƏRƏ XÜSUSİ STATUS VERMƏMƏSİNİN 10 SƏBƏBİ VAR"

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev və şöbə müdiri Cavid Vəliyevin ABŞ-ın nüfuzlu "National Interest" saytında "Azərbaycanın Qarabağda yaşayan ermənilərə xüsusi status verməməsinin 10 səbəbi" başlıqlı məqaləsi dərc olunub.

Məqalədə ilkin səbəb kimi göstərilir ki, 1988-ci ildə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində ermənilər tərəfindən başladılan separatçı hərəkatın məqsədi əslində "miatsum", yəni Ermənistanla birləşmək idi.

"Bu hərəkət Ermənistan tərəfindən dəstəklənən irredentist bir siyasət idi və xalqların öz müqəddəratını təyin haqqını nəzərdə tutmurdu" - məqalədə bildirilir.

Müəlliflər digər səbəb kimi qeyd edirlər ki, 1923-cü ildə Sovet hakimiyyəti tərəfindən muxtariyyət hüququ yalnız ermənilərə deyil, regionda yaşayan bütün xalqlara verilmişdi: "Lakin 1988-ci il fevralın 20-də keçmiş DQMV Milli Şurasında azərbaycanlıların iştirak etmədiyi bir iclasda ermənilər regiona verilən statusu sui-istifadə edərək Azərbaycan və Sovet İttifaqı Konstitusiyasına zidd olaraq ayrılma qərarı aldılar".

Üçüncü səbəb kimi bildirilir ki, Bakı Qarabağda yaşayan ermənilərin bu tələblərinə 1991-ci ilə qədər səbr göstərərək məsələni həll etməyə çalışıb, lakin Ermənistan SSR Parlamenti 1989-cu il dekabrın 1-də DQMV-ni özünə birləşdirmək üçün qeyri-qanuni qərar qəbul edib: "Nəticədə davam edən müzakirələrin nəticəsizliyi ermənilərin regionda yaşayan mülkü əhaliyə hücumu ilə davam etdi. Azərbaycan Parlamenti 1991-ci il noyabrın 26-da DQMV-ni ləğv etdi. Qısacası, hazırda Azərbaycan qanunlarına görə belə bir muxtar region yoxdur".

Dördüncü səbəb olaraq qeyd edilir ki, ermənilərin iddialarının əksinə olaraq Sovet İttifaqı Konstitusiyasına görə, muxtar regionların öz müqəddəratını təyin hüququ yox idi və bu hüquq sadəcə 15 respublikaya verilmişdi.



"Beşinci, beynəlxalq hüquq Azərbaycanda yaşayan ermənilərə öz müqəddəratını təyin hüququ vermir. Çünki Azərbaycanda yaşayan ermənilərin "xalq" statusu yoxdur. Bununla birlikdə istər beynəlxalq təşkilatların aldığı qərarlar, istərsə də Avropa İnsan Hüquqları Məhkəməsinin "Çıraqov və digərləri" haqqında qərarı Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğal olunduğunu sübut edir.

Altıncısı, Sovet İttifaqı dövründə alınan qərarı sui-istifadə edən ermənilər regionda iki müharibənin yaşanmağına və minlərcə insanın ölümünə səbəb oldu. Onlara veriləcək hər hansı bir status regionda yeni müharibələrin yaşanmağına yol aça bilər.

Yeddincisi, Birinci Qarabağ Müharibəsindən sonra 1994-cü ildə tərəflər arasında atəşkəs sənədi imzalandı. Ondan sonra davam edən diplomatik müzakirələrdə Azərbaycanın status təklifləri oldu, lakin Ermənistan tərəfi bunları qəbul etmədi. Nəticədə 2020-ci il müharibəsi yaşandı və geosiyasi reallıq dəyişdi. Artıq yeni bir statusdan söz gedə bilməz",- deyə məqalədə qeyd olunur.

Müəlliflər səkkizinci səbəb olaraq yazırlar ki, Prezident İlham Əliyevin dediyi kimi, son rəqəmlərə görə, regionda 20-25 min arası erməni yaşayır. Bu Azərbaycan əhalisinin 0.2 faizi deməkdir: "Azərbaycan çox etnikli bir dövlətdir və Azərbaycanda sayıları ermənilərdən daha çox olan etnik xalqlar yaşayır. Digər etnik xalqlar öz mədəni və dini hüquqlarını azad bir şəkildə istifadə edə bilirlər. Bu səbəbdən ermənilər də dini və mədəni hüquqlarından digər xalqlar kimi istifadə edə bilərlər".

Doqquzuncu səbəb kimi bildirilir ki, ermənilər regionda yalnız Azərbaycanda yaşamırlar və ətraf ölkədə yaşayan ermənilərə xüsusi status verilməyib. Eyni ilə ətraf ölkələrdə yaşayan azərbaycanlılara da xüsusi status verilməyib.

Sonuncu səbəbdə qeyd olunur ki, Azərbaycanda yaşayan ermənilər üçün xüsusi status tələb edənlərin məqsədi məsələni həll etmək deyil, onların məqsədi problemi dərinləşdirmək və gələcəkdə müdaxilə edə biləcəkləri sahə yaratmaqdır.

# FRANSA SAKİT OKEANDA HƏYATA KEÇİRDİYİ NÜVƏ SINAQLARINA GÖRƏ POLİNEZİYAYA PUL ÖDƏYƏCƏK

1966-cı ildən 1996-cı ilədək Sakit okeanda həyata keçirdiyi nüvə sınaqlarına görə Fransanın Polineziyaya dövlət borcu var.

Bunu Fransız Polineziyasında səfərdə olan Prezident Emmanuel Makron paytaxt Papeete şəhərindəki çıxışı zamanı söyləyib. "Sizinlə doğru və şəffaf danışmaq istəyirəm və etiraf edirəm. Dövlətimiz bu məsələdə uzun müddət sükuta üstünlük verib. Sınaqlarla bağlı hərbi baxımdan həssas sənədlər müstəsna olmaqla, digər sənədlərin saxlanıldığı arxivlər açılacaq", - deyə E.Makron bildirib.

Polineziyada keçirilmiş nüvə sınaqlarının nəticələri ilə bağlı təzminat məsələsinə toxunan Fransa Prezidenti qeyd edib ki, bu məsələ ilə bağlı işə baxılması prosesi təkmilləşdiriləcək. Prezident Makron Polineziyaya sərmayə yatırılacağını da açıqlayıb.

Xatırladaq ki, Fransa nüvə sınaqlarını 1966-cı ildən Polineziyada həyata keçirməyə başlayıb. Mururoa və Fangataufa adalarında 30 il ərzində əvvəlcə atmosferdə, sonra isə yerin altında 193 nüvə sınağı keçirilib. Sabiq prezident Fransua Mitteranın qoyduğu moratoriuma baxmayaraq, Jak Şirakın qərarı ilə sonuncu nüvə sınağı 1976-cı ildə reallaşıb.

2016-cı ildə sabiq Prezident Fransua Olland dənizaşırı əraziyə səfəri zamanı 30 illik nüvə sınaqlarının ətraf mühitə və sağlamlığa mənfi təsirlərinin olduğunu etiraf edib.

# QISA-QISA

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ölkə ərazisində dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, din adı altında milli və dövlət maraqlarımıza zidd ideoloji təlimlərin yayılmasının qarşısının alınması, o cümlədən hamı üçün çətin keçən bu günlərdə cəmiyyətimizin maddi və mənəvi cəhətdən səfərbər olunması, insanların mənəvi baxımdan sıx birləşməsi istiqamətində maarifləndirmə fəaliyyətini iyul ayı ərzində də davam etdirmişdir. Pandemiya ilə əlaqədar Dövlət Komitəsinin bölgə şöbələri tərəfindən videokonfrans formatında maarifləndirmə tədbirləri keçirilmişdir.*

Cari ay ərzində bu qəbildən olan tədbirlər:

**2 iyul** – DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə “Dini ekstremizm və gənclərin maariflənməsi” mövzusunda;

**6 iyul** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə “Xalqımızın milli birliyinin möhkəmlənməsində mənəvi dəyərlərin rolu mövzusunda;

**8 iyul** – DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Uşaqların dünyagörüşünün formalaşmasına təsir edən amillər" mövzusunda; Qobustan Rayon İcra Hakimiyyəti, DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi və rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə “Dinin siyasiləşdirilməsi milli təhlükəsizliyə və mənəvi dəyərlərə təhdid kimi” mövzusunda;

**9 iyul** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Mingəçevir Şəhər Mərkəzi Kitabxana Sisteminin birgə təşkilatçılığı ilə M.P.Vaqif adına Mərkəzi Kitabxanada





DQİDK-nın yaradılmasının 20 illik yubileyinə həsr olunmuş sərgi; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsi, Biləsuvar rayon Təhsil şöbəsi, Gənclər və İdman idarəsinin birgə təşkilatçılığı ilə “Dini fanatizmin və ekstremizmin mahiyyəti və təhlükələri" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Salyan rayonunda “Milli dövlətçiliyin möhkəmlənməsində milli-mənəvi dəyərlərin rolu” mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qax rayonunda “Uşaqların vətənpərvərlik və milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi” mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə “Multikultural cəmiyyətdə məzhəbçilik və dini təəssübkeşlik meyillərinin yaratdığı problemlər” mövzusunda;

**14 iyul** – DQİDK-nın QMİ-nin Zaqatala rayon Qazılığının birgə təşkilatçılığı ilə “Pandemiya şəraitində dini mərasim, ayin və tədbirlərin təşkili” mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Yeni Azərbaycan Partiyası Qusar rayon təşkilatı, rayon Heydər Əliyev Mərkəzi və QMİ-nin Qusar rayonu üzrə səlahiyyətli nümayəndəliyinin təşkilatçılığı ilə “Vətənpərvərlik: milli və mənəvi dəyər kimi” mövzusunda;

**15 iyul** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Xalqımızın tolerantlıq ənənələrinin və multikulturalizm siyasətinin milli həmrəyliyimizin möhkəmlənməsindəki önəmi” mövzusunda;

**16 iyul** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və YAP Yevlax rayon təşkilatının birgə təşkilatçılığı ilə “Qurban bayramı müsəlmanların mənəvi birlik və həmrəylik rəmzidir” mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin və Ağdaş rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin birgə təşkilatçılığı ilə Ağdaş rayon Mərkəzi Kitabxanasında Qurban bayramına həsr olunmuş “dəyirmi masa”;

**23 iyul** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə “Vətənpərvərlik: milli və mənəvi dəyər kimi” mövzusunda;

**27 iyul** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qax rayonunda “Narkomaniyaya yox deyək” mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Salyan rayonunda “Dini məzhəbçilik meyillərinin milli birliyə və dini təhlükəsizliyə təsiri” mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə “Narkomaniyanın fiziki, mənəvi və sosial fəsadları” mövzusunda videokonfrans;

**28 iyul** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Dini məzhəbçilik meyillərinin milli birliyə və dini təhlükəsizliyə təsiri" mövzusunda; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi, İsmayıllı Rayon İcra Hakimiyyəti, Gənclərin İnkişaf və Karyera Mərkəzinin İsmayıllı nümayəndəliyinin birgə təşkilatçılığı ilə “Xalqımızın milli birliyinin möhkəmlənməsində mənəvi dəyərlərimizin rolu” mövzusunda onlayn seminar keçirilib.



DQİDK-nın bölgə şöbələrinin və digər qurumların əməkdaşlarının, rayonların dini icma sədrləri və din xadimlərinin, QMİ-nin səlahiyyətli nümayəndələrinin, o cümlədən orta məktəb direktorları, müavinləri və psixoloqlarının, uşaq birliyi təşkilatları rəhbərlərinin və şagirdlərin iştirakı ilə keçirilən videokonfranslar zamanı düzgünlük, humanizm, vətənpərvərlik, xeyirxahlıq, mərhəmət, milli-mənəvi dəyərlərə bağlılıq, böyüklərə hörmət, əməksevərlik ruhunda tərbiyə edilməsində əsas məsuliyyəti ailənin daşıdığı vurğulanmışdır.

Milli birliyin möhkəmlənməsində mənəvi dəyərlərin rolu barədə danışan natiqlər qeyd ediblər ki, hazırda dövlət siyasətinin prioritet istiqamətlərindən birini də milli-mənəvi dəyərlərə və tarixi-mədəni irsə bağlılığın möhkəmləndirilməsi, adət-ənənələrin qorunması, mədəni-tarixi abidələrin mühafizəsi, mənəvi irsin öyrənilməsi təşkil edir. Natiqlər məktəblilərin zərərli vərdişlərdən və radikal dini təsirlərdən qorunmasının vacibliyini vurğulayaraq bu istiqamətdə dövlətin həyata keçirdiyi tədbirlərdən bəhs ediblər. Gənclərin radikal dini təsirlərdən, dini radikalizmdən qorunmasında təhsilin önəminə toxunublar.

Videokonfranslarda insan hüquqlarının tərkib hissəsi olan uşaq hüquqlarına, eləcə də onların təhsil hüququna diqqət çəkilib. Çıxışlar zamanı insan hüquq və azadlıqları, bu sahədə qəbul edilmiş qanunlar, qərarlar və digər normativ aktlar haqqında məlumat verilərək, ölkəmizdə bu sahədə görülən işlər, həyata keçirilən layihələr tədbir iştirakçılarının diqqətinə çatdırılıb. Həmçinin vurğulanıb ki, vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədidir və dövlət hər kəsin hüquq və azadlıqlarının müdafiəsinə təminat verir. Xüsusilə qeyd olunub ki, ölkəmizdə bütün dinlərin nümayəndələrinin hüquq, inanc və azadlığına hörmətlə yanaşılır.



Narkomaniyanın fəsadları və ölkəmizdə narkomaniyaya qarşı aparılan tədbirlərdən, zərərli vərdişlərə qarşı mübarizədə gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsinin əhəmiyyətindən, radikalizmin yaranma, yayılma və inkişaf səbəbləri, onunla mübarizə metodları, radikalizmdən qorunma üsullarından bəhs olunan videokonfranslar qarşılıqlı diskussiya şəklində baş tutub.

Çıxışlar zamanı İslam dünyasının ən müqəddəs bayramlarından sayılan Qurban bayramının bütün müsəlman ölkələrində olduğu kimi Azərbaycanda da böyük sevgi ilə qeyd olunduğu ilə bağlı fikirlər səsləndirilib.

Tədbirlərin sonunda iştirakçıların təklifləri dinlənilib, onları maraqlandıran suallar cavablandırılıb.

# Afrikada COVID-19-a yoluxanların sayı 6,5 milyonu keçib

Afrika qitəsi ölkələrində koronavirusa yoluxanların sayı 6 535 914 nəfərə çatıb, 166 215 nəfər bu virusa yoluxma nəticəsində həyatını itirib, 5,7 milyondan çox insan isə müalicə olunaraq sağalıb. Bu barədə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) regional nümayəndəliyi məlumat yayıb.

Qitədə virusa yoluxmuş və ölənlərin əksəriyyəti Cənubi Afrika Respublikasında (CAR) qeydə alınıb – müvafiq olaraq 2 391 223 və 70 388 nəfər. Tunisdə 19 027 ölüm, 578 962 yoluxma faktı qeydə alınıb. Misirdə isə bu rəqəmlər 16 498 və 284 090 nəfərdir.

Böyük Səhranın cənubunda yerləşən Afrika ölkələrində virusa yoluxmuş və ölənlərin sayına görə CAR-ın ardınca Efiopiya (278 920 və 4374), Keniya (198 935 və 3882) və Nigeriya (171 728 və 2134) gəlir.



# CƏMİYYƏT və DİN

№ 07 (357) İYUL 2021-ci il


## AFRİKANIN CƏNUBUNDA GÖRÜNMƏMİŞ ŞAXTA QEYDƏ ALINDI



Cənubi Afrikanın mərkəzi hissəsində iyulun 23-də ən aşağı temperatur üzrə rekord qeydə alınıb.

Bu barədə iyulun 24-də yerli SABC radiostansiyası Cənubi Afrika Meteorologiya Xidmətinə istinadən məlumat verib.

Sinoptiklərin bildirdiyinə görə, iyulun 24-nə keçən gecə ölkənin 19 bölgəsində minimal temperatur üzrə tarixi rekordlar qırılıb. Belə ki, Kimberli şəhərində və ətraf bölgələrdə şaxta mənfi 9,9 dərəcə Selsiyə çatıb. Bütün meteoroloji müşahidələr dövründə orada heç vaxt belə kəskin soyuq hava olmayıb. Yohannesburqda isə havanın temperaturu mənfi 7 dərəcəyə düşüb. Burada əvvəlki soyuq hava rekordu (-6,3 dərəcə) 1995-ci il iyulun 19-da qeydə alınmışdı.

Uzun illərdən bəri ilk dəfə Cənubi Afrikanın müxtəlif bölgələrinə qar yağıb. SABC qeyd edir ki, uşaqlar və yeniyetmələr bu ərazilərdə qar yağışını ilk dəfə görüblər. Yerlərin buz bağlaması səbəbindən çox sayda magistral yol bağlanıb.

Cari şaxtalar Afrikanın cənubuna Antarktidadan gəlib. "Buzlu qitə" Afrika qitəsinin cənub nöqtəsindən təxminən 4 min km məsafədə yerləşir. Soyuq havanın Cənubi Afrikada iyulun sonuna kimi davam edəcəyi gözlənilir.

## BU ÖLKƏDƏ KƏNDƏ KÖÇƏNLƏRƏ PUL VERİLİR



İtaliyanın cənubundakı Kalabriya regionundakı kiçik qəsəbələrə köçmək istəyənlərə 28 min avroyadək vəsait təklif edilir. Dəniz kənarında və dağların yaxınlığında füsunkar gözəlliyə malik olan həmin tarixi qəsəbələrə köçənlər sözügedən vəsaiti almaq müqabilində kiçik sahibkarlıqla məşğul olmalıdır.

Qeyd olunub ki, şərtlərə uyğun olaraq həmin işə ya sıfırdan, ya da qəsəbələrdən verilən peşə sahiblərilə bağlı təklifə əsasən başlamaq olar.

## NADİR MAVİ ALMAZ HƏRRACDA 40 MİLYON DOLLARA SATILIB



Cənub Afrika Respublikasının Kullinan mədənində tapılan 39,3 karatlıq mavi almaz hərracda 40 milyon ABŞ dollarına satılıb.

Bu barədə almazın keçmiş sahibi "Petra Diamonds" kompaniyası məlumat yayıb.

Cilalanmamış qiymətli daşın hər karatının qiyməti 1 milyon ABŞ dolları təşkil edib.

Almaz "De Beers" və "Diacore" şirkətləri tərəfindən alınıb.

Qeyd edək ki, mavi almazlar çox nadir tapıntıdır. Onlar bütün dünyada hasil edilən almazların cəmi 1 faizini təşkil edir.

## Bakı və Abşeron üzrə namaz vaxtları (Avqust - 2021)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 04:02 | 05:37 | 12:47 | 17:48 | 20:11 | 21:24 |
| 2 | 04:03 | 05:38 | 12:47 | 17:48 | 20:10 | 21:23 |
| 3 | 04:04 | 05:39 | 12:47 | 17:47 | 20:09 | 21:21 |
| 4 | 04:06 | 05:40 | 12:47 | 17:46 | 20:08 | 21:20 |
| 5 | 04:07 | 05:41 | 12:46 | 17:46 | 20:07 | 21:18 |
| 6 | 04:09 | 05:42 | 12:46 | 17:45 | 20:06 | 21:17 |
| 7 | 04:10 | 05:43 | 12:46 | 17:44 | 20:04 | 21:15 |
| 8 | 04:11 | 05:44 | 12:46 | 17:43 | 20:03 | 21:13 |
| 9 | 04:13 | 05:45 | 12:46 | 17:43 | 20:02 | 21:12 |
| 10 | 04:14 | 05:46 | 12:46 | 17:42 | 20:00 | 21:10 |
| 11 | 04:15 | 05:47 | 12:46 | 17:41 | 19:59 | 21:09 |
| 12 | 04:17 | 05:48 | 12:46 | 17:40 | 19:58 | 21:07 |
| 13 | 04:18 | 05:49 | 12:45 | 17:39 | 19:56 | 21:05 |
| 14 | 04:19 | 05:50 | 12:45 | 17:38 | 19:55 | 21:04 |
| 15 | 04:21 | 05:51 | 12:45 | 17:37 | 19:54 | 21:02 |
| 16 | 04:22 | 05:52 | 12:45 | 17:36 | 19:52 | 21:00 |
| 17 | 04:23 | 05:53 | 12:45 | 17:36 | 19:51 | 20:59 |
| 18 | 04:25 | 05:54 | 12:44 | 17:35 | 19:49 | 20:57 |
| 19 | 04:26 | 05:55 | 12:44 | 17:34 | 19:48 | 20:55 |
| 20 | 04:27 | 05:56 | 12:44 | 17:33 | 19:46 | 20:53 |
| 21 | 04:29 | 05:57 | 12:44 | 17:31 | 19:45 | 20:52 |
| 22 | 04:30 | 05:58 | 12:43 | 17:30 | 19:43 | 20:50 |
| 23 | 04:31 | 05:59 | 12:43 | 17:29 | 19:42 | 20:48 |
| 24 | 04:33 | 06:00 | 12:43 | 17:28 | 19:40 | 20:46 |
| 25 | 04:34 | 06:00 | 12:43 | 17:27 | 19:39 | 20:44 |
| 26 | 04:35 | 06:01 | 12:42 | 17:26 | 19:37 | 20:43 |
| 27 | 04:36 | 06:02 | 12:42 | 17:25 | 19:36 | 20:41 |
| 28 | 04:38 | 06:03 | 12:42 | 17:24 | 19:34 | 20:39 |
| 29 | 04:39 | 06:04 | 12:41 | 17:23 | 19:33 | 20:37 |
| 30 | 04:40 | 06:05 | 12:41 | 17:21 | 19:31 | 20:35 |
| 31 | 04:41 | 06:06 | 12:41 | 17:20 | 19:29 | 20:34 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4**, Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5**, Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6**, Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8**, Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

## DÜNYANIN ƏN YAŞLI SAKİNİ UZUN YAŞAMAĞIN SİRRİNİ AÇIQLAYIB






Dünyanın ən yaşlı sakini Emilio Flores Markes uzun yaşamağın sirrini açıqlayıb.

Puerto Rikonun sakini Emilio Flores Markes dünyanın hazırda yaşayan ən yaşlı kişisi kimi "Ginnesin Rekordlar Kitabı"na düşüb.

1908-ci ilin 8 avqust tarixində dünyaya gələn Markes ailədə 10 uşağın böyüyü olub, ailənin şəkər qamışı fermasında çalışıb. 75 illik evlilikdən sonra həyat yoldaşını 2010-cu ildə itirən Markes dörd övlad, beş nəvə, beş nəticə sahibidir. Övladlarının ikisi hələ də sağdır. Uzun yaşamağın sirrini bölüşən Markes həmişə sevgini kin-küdurətdən üstün tutduğunu deyib: "Atam məni sevgi ilə böyüdüb, hamını sevməyi öyrədib. Mənə də, bacı-qardaşlarıma da yaxşılıq etməyi, əl tutmağı, bölüşməyi nəsihət edib".

Bundan əvvəl dünyanın ən yaşlı sakini olmuş rumıniyalı Dumitru Komenesku 2020-ci il 27 iyun tarixində, 112 yaşında dünyasını dəyişib.

### Yadigar söz

**Konfutsi**

*Hər insana özün kimi hörmət etmək,*
*özün kimi rəftar etmək – bundan yüksək heç nə yoxdur.*


Baş redaktor **Səyyad ARAN**

**Redaksiya şurası:**
**Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Raman DADAŞOV** (Məsul katib).

**Ünvan:** AZ 1001, Bakı şəhəri, Şeyx Şamil küçəsi 5
**Telefon:** 505 78 16; 505 78 19
**E-mail:** redaksiya@scwra.gov.az

**Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:**
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

**Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində** yığılıb səhifələnmiş, "**Universal Poliqraf**" **nəşriyyatında** ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
**Tiraj:** 1200
**Sifariş:** 355

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894